**AZƏRBAYCAN RESPUBLİKASI**

**“GƏLƏCƏYİN KİTABXANASI”**
**İCTİMAİ BİRLİYİ**

*ISSN (ISSN-L): 2959-1694*
*ISSN (Online): 2959-1708*

DOI 10.5281/zenodo.18343601

# KİTABXANA.AZ

**ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL**

*Jurnal 2008-ci ildən nəşr olunur.*
*İllik dövriyyəsi ildə iki dəfədir (aprel-oktyabr).*

# №1(42) * Aprel

**Seriyanın istiqamətləri:**

- Tarix elmi
- Humanitar və sosial elmlər tarixi
- Kitabxana işinin tarixi
- İnformasiya və sənəd menecmenti
- Kitabşünaslıq və nəşriyyat işinin tarixi

**Indexed in**

OpenAIRE

**Bakı – 2025**

**Təsisçi və baş redaktor:** **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

**Redaktor:** **Eldəniz MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru

**Redaksiya heyəti:**
**Xəlil İSMAYILOV**, tarix elmlər doktoru, professor
**İkram AĞASİYEV,** tarix elmlər doktoru, professor
**İlqar NİFTƏLİYEV,** tarix elmlər doktoru, dosent
**Cəbi BƏHRAMOV,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda XƏLƏFOVA,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Pərviz KAZIMİ,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Tahirə ALLAHYAROVA,** fəlsəfə elmlər doktoru, professor
**Rəsmiyyə ABDULLAYEVA**, iqtisad elmlər doktoru, dosent
**Ələmdar BAYRAMOV,** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elçin ƏHMƏDOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Knyaz ASLAN,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Hasan KESEROĞLU,** İnformasiya və sənəd menecmenti professoru (Kastamonu Universiteti, Türkiyə)
**Gülər DƏMİR,** İnformasiya və sənəd menecmenti dosenti (Kastamonu Universiteti, Türkiyə)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə **№ 2492**. Qeydiyyat tarixi **16.01.2008**.

---

**Redaksiyanın ünvanı:** AZ 1096, Bakı şəhəri, K.Balakişiyev küçəsi 43/15
**Telefonlar:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**E-mail:** shafaq.ace@gmail.com
Jurnal **“Füyuzat MMC”** Nəşriyyat və Poliqrafiya Mərkəzində nəşr olunur.

**© “Gələcəyin kitabxanası” İctimai Birliyi, 2025**
**© Kitabxana.az, 2025**

**REPUBLIC OF AZERBAIJAN**
**АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА**

**"THE LIBRARY OF FUTURE" PUBLIC UNION**

**«БИБЛИОТЕКА БУДУЩЕГО» ОБЩЕСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ**

***ISSN (ISSN-L): 2959-1694***
***ISSN (Online): 2959-1708***

# KİTABXANA.AZ

**SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL**

The journal has been published since 2008. Annual turnover is twice a year (april-october).

# KİTABXANA.AZ

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ**

Журнал издается с 2008 года. Годовой оборот два раза в год (апрель-октябрь).

**April * №1(42) * Апрель**

**Series directions:**

- History science
- History of humanities and social sciences
- History of librarianship
- Information and document management
- History of bibliology and publishing

**Направления серии:**

- Историческая наука
- История гуманитарных и социальных наук
- История библиотечного дела
- Информационный и документный менеджмент
- История книговедения и издательского дела

**Baku – 2025**

**Баку - 2025**

**FOUNDER AND EDITOR-IN-CHIEF**:
**Shafag ISLAMOVA**
PhD in history

**Editor:**
**Eldaniz MAMMADOV**
PhD in history

## Editorial staff:

**Khalil ISMAILOV**, doctor of science in history, professor
**Ikram AGHASIYEV**, doctor of science in history, professor
**İlqar NIFTALIYEV,** doctor of science in history, docent
**Jabi BAHRAMOV**, PhD in history, docent
**Sevda KHALAFOVA**, PhD in history, docent
**Parviz KAZIMI**, PhD in history, docent
**Tahira ALLAHYAROVA**, doctor of science in Philosophy, professor
**Rasmiya ABDULLAYEVA,** doctor of economy sciences, docent
**Alamdar BAYRAMOV**, PhD in philology, docent
**Elchin AHMEDOV**, PhD in pedagogy, docent
**Knyaz ASLAN**, PhD in pedagogy, docent
**Hasan KESEROGLU,** Professor of Information and Document Management (Kastamonu University, Turkey)
**Guler DEMİR,** Docent of Information and Document Management (Kastamonu University, Turkey)

**УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:**
**Шафаг ИСЛАМОВА**
доктор философии по истории

**РЕДАКТОР:**
**Эльданиз МАМЕДОВ**
доктор философии по истории

## Редакционная коллегия:

**Халил ИСМАИЛОВ,** доктор исторических наук, профессор
**Икрам АГАСИЕВ**, доктор исторических наук, профессор
**Ильгар Нифталиев,** доктор исторических наук, доцент
**Джаби БАХРАМОВ**, доктор философии по истории, доцент
**Севда ХАЛАФОВА**, доктор философии по истории, доцент
**Парвиз КАЗИМИ**, доктор философии по истории, доцент
**Тахира АЛЛАХЯРОВА,** доктор философских наук, профессор
**Расмия АБДУЛЛАЕВА,** доктор эклномических наук, доцент
**Аламдар БАЙРАМОВ**, доктор философии по филологии, доцент
**Эльчин АХМЕДОВ,** доктор философии по педагогике, доцент
**Князь АСЛАН,** доктор философии по педагогике, доцент
**Хасан КЕСЕРОГЛУ**, профессор менеджмента нформации и документа (Университет Кастамону, Турция)
**Гюльер Демир**, доцент менеджмента информации и документа (Университет Кастамону, Турция)

The journal is registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate **No. 2492**. Registration date **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Editorial address:** AZ1096, Baku city, K.Balakishiyev street 43/15
**Phones:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**Email:** shafaq.ace@gmail.com
The magazine is published in the Publishing and Printing Center “Fuyuzat LLC”.

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики. Свидетельство **№ 2492.** Дата регистрации **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Адрес редакции:** AZ1096, город Баку, улица К.Балакишиева 43/15
**Телефоны:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**Электронная почта:** shafaq.ace@gmail.com
Журнал издается в Издательско-полиграфическом центре «Фуюзат ООО».

**© Public Union “The Library of Future”**
**© Kitabxana.az, 2025**

**© Общественное объединение «Библиотека будущего»**
**© Kitabxana.az, 2025**

KİTABXANA İŞİNİN TARİXİ
HISTORY OF LIBRARIANSHIP
*ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА*

=====================================================

**UOT/UDC/УДК *02:504(091)***

DOI 10.5281/zenodo.18342192

**Şəfəq İsrafil qızı İslamova**
*Azərbaycan Respublikası ETN*
*İqtisadiyyat İnstitutunun kitabxana*
*müdiri, tarix üzrə fəlsəfə doktoru*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# YAŞIL KİTABXANALARIN TARİXİ: KEÇMİŞDƏN GƏLƏCƏYƏ EKOLOJİ YANAŞMALAR

***Xülasə:*** *Məqalədə "yaşıl kitabxanalar"ın tarixi inkişafı və ekoloji dayanıqlılıq prinsiplərinin kitabxana fəaliyyətinə inteqrasiyası araşdırılır. Sənaye dövründən əvvəl kitabxanaların əsasən funksionallıq və bilik mərkəzləri kimi fəaliyyət göstərməsi, lakin ekoloji yanaşmaların hələ geniş yayılmadığı təhlil edilir. XIX-XX əsrlərdə sənayeləşmə və yeni tikinti materiallarının kitabxanaların memarlıq üslubuna təsiri araşdırılır, lakin həmin dövrdə ətraf mühit məsələlərinin az diqqət mərkəzində olması qeyd olunur. XXI əsrdə isə yaşıl kitabxanaların davamlı inkişaf, enerji səmərəliliyi və sosial məsuliyyət prinsiplərini ön plana çıxarması təhlil edilir. Nəticədə yaşıl kitabxanaların keçmişdən gələcəyə bilik və ekoloji şüurun kəsişdiyi mərkəzlərə çevrildiyi vurğulanır.*

***Açar sözlər:*** *Yaşıl kitabxanalar, ekoloji dayanıqlılıq, sənaye dövrü, memarlıq tarixi, enerji səmərəliliyi, rəqəmsallaşma, kitabxana idarəçiliyi, ekoloji şüur.*

## GİRİŞ

Kitabxanalar insan bilik mərkəzləri kimi uzun tarixi boyunca müxtəlif mərhələlərdən keçmişdir. Ətraf mühit və ekoloji dayanıqlılıq məsələləri isə yalnız son onilliklərdə kitabxana fəaliyyətində önəmli yer tutmağa başlamışdır. "Yaşıl kitabxanalar" anlayışı isə müasir dövrdə ekoloji məsuliyyət və davamlı inkişaf prinsiplərinin kitabxana idarəçiliyinə

inteqrasiyasını ifadə edir (*IFLA, 2022)*. Əvvəlki əsrlərdə kitabxanaların tikintisi və fəaliyyəti əsasən funksionallıq, estetik görünüş və əlçatanlıq kimi prinsiplərə əsaslanırdı. Məsələn, qədim kitabxanalar - Mesopotamiya, Aleksandriya kimi bilik toplayan məkanlar idi, lakin ekoloji aspektlər nəzərə alınmırdı. Orta əsrlərdə isə monastır kitabxanaları adətən təbii materiallardan tikilmiş və yerli iqlim şəraitinə uyğun dizayn olunmuşdu *(Xələfov, 2006)*.

Kitabxanalar tarix boyunca yalnız biliklərin saxlanıldığı və ötürüldüyü məkanlar kimi deyil, həm də cəmiyyətin mədəni, sosial və indi isə ekoloji inkişafına təsir edən mühüm institutlar kimi fəaliyyət göstərmişdir. Müasir dövrdə ekoloji böhranlar fonunda **“**yaşıl kitabxana**”** anlayışı aktuallaşmış, ətraf mühitə minimum təsir göstərən, enerji və resurslara qənaət edən, eyni zamanda ekoloji təhsili təşviq edən bir ictimai məkana çevrilmişdir *(Fedorowicz-Kruszewska, 2021)*.

**MÜZAKİRƏ**

“Yaşıl kitabxana” termini kitabxananın yalnız fiziki strukturu ilə məhdudlaşmır. Bu anlayış eyni zamanda onun fəaliyyət prinsiplərini, idarəetmə siyasətini, sosial rolunu və istifadəçi ilə münasibətini də əhatə edir. IFLA-nın ENSULIB bölməsi (Environment, Sustainability and Libraries Section) tərəfindən verilən yeni tərifə görə “yaşıl və davamlı kitabxana” üç əsas aspekti – “ətraf mühit”, “iqtisadiyyat” və “sosial məsuliyyət” nəzərə alan qurumdur (*IFLA, 2022)*. Aşağıdakılar onun əsas prinsipləridir:

❖ Yaşıl binalar və avadanlıqlar: bina və texniki infrastruktura bağlı karbon izini azaltmaq;

❖ Yaşıl ofis prinsipləri: gündəlik fəaliyyətlərin ekoloji cəhətdən davamlı olması;

❖ Davamlı iqtisadiyyat: israfın azaldılması, paylaşım və dövriyyə iqtisadiyyatı təcrübələrinin təşviqi;

❖ Dayanıqlı kitabxana xidmətləri: ekoloji təhsil, resurs paylaşımı, effektiv əməliyyatlar, müsbət karbon izi (handprint);

❖ Sosial dayanıqlılıq: təhsil, ədəbiyyat, müxtəliflik, sosial daxil etmə və ədalətli iştirakçılıq;

❖ Ətraf mühitin idarəedilməsi: SMART (spesifik, ölçülə bilən, əldə edilə bilən, müvafiq və vaxta bağlı) hədəflərlə çevrə təsirini azaldan tədbirlər;

❖ Qlobal ekoloji proqramlara bağlılıq: BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDGs), Paris sazişi və digər sertifikatlarla sinxron fəaliyyət *(International Science Council, 2020)*.

Bu yanaşmanın kökləri əslində daha qədim dövrlərə gedib çıxır. Tarixə nəzər saldıqda bir çox qədim kitabxanaların tikintisində yerli materiallardan istifadə, təbiətlə harmoniya içində yerləşmə və mədəniyyətə hörmətlə yanaşma kimi prinsiplər müşahidə edilir. Məsələn:

- İsgəndəriyyə Kitabxanası (Misir) sahil yaxınlığında yerləşərək təbii işıqdan geniş istifadə edilən bir mühitdə qurulmuşdu;
- Orta əsr monastır kitabxanaları qədim Avropada monastırlar daxilində yerləşən kitabxanalar təbiətə yaxınlıq, materialların təkrar istifadəsi və minimalizm ilə seçilirdi *(Xələfov, 2006)*. Bu dövrlərdə "ekoloji düşüncə" müasir anlamda mövcud olmasa da sərvətlərin qənaətli istifadəsi və təbiətlə uyğunluq kimi xüsusiyyətlər dolayı yolla dayanıqlılıq prinsipini ifadə edirdi.

***Sənaye dövrü və texnoloji dəyişikliklər kontekstində kitabxanaların inkişafi (XIX-XX əsrlər)***

XIX əsrin ortalarından başlayaraq Avropada və Şimali Amerikada baş verən sənaye inqilabı urbanizasiya ilə paralel şəkildə kitabxana tikintisinə də öz təsirini göstərdi. Ənənəvi daş və ağac materiallarının yerini beton, polad və şüşə kimi sənaye istehsalı materialları aldı. Bu yeni materiallar kitabxana binalarının daha iri ölçülü və çoxmərtəbəli, davamlı və uzunömürlü, daha açıq və aydın interyer planlamalı şəkildə dizayn edilməsinə imkan yaratdı. 2000-ci illərdə "yaşıl" dizayn və texnologiyaların inkişafı ilə birlikdə kitabxana binalarında LEED (Enerji və ətraf mühit dizaynında liderlik) və digər ekoloji sertifikatlaşdırma sistemləri tətbiq edilməyə başlandı *(İslamova, 2024)*. Əsas məqsəd daha geniş auditoriyanı cəlb etmək və kitabxananı sosial-mədəni mərkəzə çevirmək idi. Bu mərhələ kitabxananın ictimai həyatının mühüm məkanı kimi formalaşmasının başlanğıcı hesab olunur *(Fedorowicz-Kruszewska, 2021)*.

Rəqəmsallaşma prosesinin 2020-ci ildən sonra güclənməsi kağız istehsalının azalmasına, elektron kitabların və rəqəmsal resursların daha çox üstünlük qazanmasına səbəb oldu. Bu yeniliklər kitabxanaların davamlı idarə olunmasına imkan yaratmaqla yanaşı ekoloji sabitliyə də müsbət təsir göstərdi. Dünyanın aparıcı kitabxanaları sırasında Taipei İctimai Kitabxanası (2006) və Freiburg Universiteti Kitabxanası (2015) yaşıl memarlığın uğurlu nümunələri kimi tanınır.

Həmin dövrdə kitabxana binalarının layihələndirilməsi əsasən funksionallıq və texnoloji üstünlüklərin təmininə yönəlmişdi. Ekoloji dayanıqlılıq konsepsiyası geniş tətbiq olunmadığından enerji sərfiyyatı (istilik və işıqlandırma) nəzərə alınmır, ventilyasiya sistemləri isə yalnız texniki zərurət kimi qəbul edilirdi. Təbii hava axınının və gün işığının

optimal istifadəsi məsələsinə diqqət yetirilmədiyi kimi, istifadə olunan tikinti materiallarının ətraf mühitə potensial təsiri və karbon izi də tədqiq olunmurdu *(Aulisio, 2013)*.

Bu mərhələdə kitabxana binalarının ətraf mühitə təsiri ikinci dərəcəli məsələ olaraq qalır. Əsas diqqət sənaye gücünü təcəssüm etdirən "nəhəng tikililərin" inşasına yönəlirdi. Bununla yanaşı sənaye dövründə formalaşan rasional memarlıq yanaşması müəyyən hallarda enerji və məkan qənaətini təşviq edən dizayn prinsiplərini dəstəkləyirdi *(Fedorowicz-Kruszewska, 2021)*. Məsələn, "Form follows function" (forma funksiyanı izləyir) prinsipi əsasında:

❖ Geniş və açıq oxu zalları inşa edilir;

❖ Böyük pəncərələr və şüşə tavanlar vasitəsilə təbii işıqdan istifadəyə üstünlük verilir;

❖ Məkanlar isə modulyar (yenidən qurula bilən) şəkildə layihələndirilirdi ki, bu da uzunmüddətli istifadə prosesində enerji və resurs qənaətini təmin edirdi.

Bu dövrdə bəzi qabaqcıl memarlar (məsələn, Frank Lloyd Wright) təbiətlə harmoniya ideyasını memarlıqda tətbiq etməyə çalışırdılar. Onların layihələrində təbiətə inteqrasiya, materialların mənşəyi, hava axınının təbii yönləndirilməsi kimi ideyalar daha erkən yaşıl yanaşma nümunəsi kimi dəyərləndirilə bilər *(International Science Council, 2020)*.

XX əsrin əvvəllərində bir çox ölkədə dövlət kitabxanaları yalnız bilik mərkəzi deyil, həm də sosial inklüzivlik, maarifçilik və mədəni bərabərlik ideyalarının daşıyıcısı kimi dəyərləndirilirdi *(Xələfov, 2006).* Bu aspekt ekoloji deyil, amma sosial dayanıqlılıq baxımından önəmlidir. Ekoloji yanaşmanın əsasını təşkil edən "insan mərkəzli inkişaf" bu dövrdə əsas hədəflərdən biri idi *(International Science Council, 2020).*

1970-ci illərdən etibarən Qərb ölkələrində ətraf mühitə dair narahatlıqlar artmağa başlayanda bəzi kitabxanalar da bu kontekstdə transformasiyaya doğru ilk addımlarını atmağa başladılar. Bu mərhələ enerji effektivliyi ilə bağli ilk texniki təkmilləşdirmələr, yaşıl sahələrin kitabxana ətrafında qorunması, işıqlandırma sistemlərinin təkmilləşdirilməsi, kağız israfinin azaldılması və təkrar istifadə təşəbbüsləri ilə müşayiət olunurdu.

Bu keçid sonradan "yaşıl kitabxana" anlayışının tam formalaşmasına zəmin yaratdı. Nəticə olaraq sənaye dövründə kitabxanalar daha çox texnoloji imkanlara əsaslanaraq böyüdü və ictimaiyyətə açıq məkana çevrildi. Ekoloji düşüncə hələ mövcud olmasa da rasyonalizm, funksionallıq, sosial məsuliyyət və material qənaəti kimi yanaşmalar bu dövrü yaşıl kitabxana ideyasının hazırlıq mərhələsi kimi dəyərləndirməyə

əsas verir.

***Müasir yaşıl kitabxana konsepsiyası: qlobal praktikalar və gələcək yönümlü modellər***

"Yaşıl kitabxana" anlayışı son onilliklərdə kitabxanaların təkcə informasiyanı paylaşan mərkəz deyil, eyni zamanda ekoloji, sosial və iqtisadi dayanıqlılığın təşviqçisi kimi rolunu önə çıxarmışdır. Beynəlxalq miqyasda yaşıl kitabxanalar ətraf mühitə minimum təsir edən memarlıq və idarəetmə, resursların davamlı istifadəsi və enerji effektivliyi, istifadəçilərdə ekoloji düşüncənin formalaşdırılması sosial cəhətdən bərabər və inklüziv xidmət göstərilməsi kimi prinsiplərə əsaslanır.

Müasir yaşıl kitabxanalar artıq yalnız tikinti səviyyəsində deyil, proqram, xidmət və idarəetmə siyasəti baxımından da yaşıl yanaşmanı tətbiq edir.

Müasir yaşıl kitabxanaların fiziki strukturu aşağıdakı xüsusiyyətləri ilə seçilir *(International Science Council, 2020)*:

Enerji səmərəliliyi:

- Günəş panelləri, passiv günəş istilik sistemləri;
- LED işıqlandırma və avtomatik söndürülmə mexanizmləri;
- Yüksək izolyasiyalı divar və pəncərələr.

Su resurslarının idarəedilməsi:

- Yağış sularının toplanması və təkrar istifadəsi;
- Ağıllı su sistemləri (az sərfiyyatlı kranlar, sensorlu sistemlər).

Ekoloji materiallar:

- Təkrar emal olunmuş və zərərsiz tikinti materialları;
- FSC sertifikatlı ağac məhsulları;
- VOC-suz (uçucu üzvi birləşməsiz) boyalar və yapışdırıcılar.

Təbii işıqlandırma və havalandırma:

- Geniş pəncərələr, açıq planlı interyer;
- Yaşıl damlar və fasadlar;
- Təbii ventilyasiya və təmiz hava axını sistemi.

Texnologiyanın sürətli inkişafı və ekoloji təhdidlərin artması fonunda yaşıl kitabxanaların gələcək modeli karbon neytrallığına (sıfır emissiyaya) nail olmaq hədəfi, ağıllı bina texnologiyalarının (IoT əsaslı sensorlar və smart enerji monitorinqi) tətbiqi, icma əsaslı yaşıl təşəbbüslərin (kənd təsərrüfatı sahələri və icma bağçaları) təşviqi, ekosistem dizaynı və biofilik memarlığın təbiəti təqlid edən formaları ilə zənginləşdirilməsi, iqlim dəyişikliklərinə (daşqınlar, istilik dalğaları və su qıtlığına) adaptiv infrastruktur vasitəsilə uyğunlaşma, həmçinin sosial və mədəni dayanıqlılığın gücləndirilməsi istiqamətində inkişaf edir *(Aulisio, 2013)*.

Yaşıl kitabxanalar yalnız texniki və ekoloji ölçülərlə məhdudlaşmamalı, sosial ədalət və mədəni inklüzivlik prinsiplərinə də xidmət etməlidir. Bu baxımdan kitabxana məkanlarının əlillər üçün tam əlçatan dizayn əsasında qurulması, müxtəlif dillər və mədəniyyətlər üzrə proqramların təşkili, resursları məhdud olan icmalar üçün "yaşıl maarifləndirmə" təşəbbüslərinin həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bundan əlavə, uşaqlar, gənclər və yaşlılar üçün fərqli yanaşmalara əsaslanan ekoloji təlim proqramlarının hazırlanması cəmiyyətin bütün təbəqələrinin ekoloji şüurunun formalaşdırılmasına və inklüziv iştirakının təmin olunmasına şərait yaradır.

***Azərbaycanda tətbiq oluna biləcək yaşıl kitabxana modelləri***

Enerji effektivliyi modeli:

- Kitabxananın enerji sərfiyyatının minimuma endirilməsi;
- Günəş panellərinin quraşdırılması, LED işıqlandırma, təbii işıqdan maksimum istifadə;
- İstilik izolyasiyası və hava dövranının optimallaşdırılması;
- Mövcud binaların enerjiyə qənaət texnologiyaları ilə təchiz edilməsi.

Rəqəmsal və kağızsız model:

- Fiziki kataloqların elektronlaşdırılması, onlayn xidmətlərin genişləndirilməsi;
- E-kitablar, audio və video resursların istifadəsini təşviq etmək;
- Kağız sərfiyyatını minimuma endirən rəqəmsal qeydiyyat və ödəniş sistemləri.

Ekoloji maarifləndirmə və sosial iştirak modeli:

- Kitabxana istifadəçilərini və icmanı ekoloji məsələlər üzrə maarifləndirmək üçün proqramların hazırlanması;
- İctimai seminarlar, sərgilər, "yaşıl həftə" tədbirləri keçirmək;
- Sosial layihələrdə iştirak (məsələn, tullantıların çeşidlənməsi, bərpa olunan materialların istifadəsi).

Təbii və ekoloji memarlıq modeli:

- Kitabxana binalarının tikintisində təbii, bərpa olunan materiallardan istifadə;
- Yaşıl dam örtükləri, açıq və ya qismən açıq fəzalar, bağçalar yaratmaq;
- Yaşayış yerləri ilə inteqrasiya edilmiş kitabxana məkanları *(İslamova, 2024).*

***Davamlı idarəetmə və tullantıların azaldılması modeli***

- Kitabxana fəaliyyətində tullantıların azaldılması, təkrar istifadə və çeşidləmə sistemlərinin tətbiqi;

- Elektron sənədləşmə, minimal plastikin istifadəsi;
- Enerji, su, material sərfiyyatının mütəmadi monitorinqi və hesabatların hazırlanması *(İslamova, 2024)*.

**Cədvəl 1**

*Hər bir modelin üstünlükləri və tətbiq sahələri*

| **Model** | **Üstünlükləri** | **Tətbiq sahələri** |
|---|---|---|
| Enerji effektivliyi | Aşağı enerji xərcləri, yaşıl sertifikat | Hər növ kitabxanalar |
| Rəqəmsal və kağızsız | Resursların qənaətli istifadəsi | Böyük şəhər, universitet kitabxanaları |
| Ekoloji maarifləndirmə | İctimai şüurun artması | İctimai kitabxanalar, uşaq kitabxanaları |
| Təbii memarlıq | Estetik və ekoloji uyğunluq | Yeni tikililər, yenilənmə layihələri |
| Davamlı idarəetmə | Tullantıların azaldılması və resurs qənaəti | Mövcud kitabxanaların yenilənməsi |

## NƏTİCƏ

Yaşıl kitabxanalar müasir dövrün ekoloji və sosial çağırışlarına kompleks yanaşma təqdim edən və dayanıqlı gələcəyin formalaşdırılmasında mühüm rol oynayan çoxfunksiyalı mərkəzlərdir. Bu konsepsiya yalnız memarlıq və texnoloji həllərlə məhdudlaşmır, eyni zamanda idarəetmə, xidmət və təhsil funksiyalarında da öz əksini tapır. İdarəetmədə enerji və resursların səmərəli istifadəsi, xidmətlərdə rəqəmsal transformasiya və ictimai maarifləndirmə təşəbbüsləri yaşıl kitabxananın əsas dayaqlarını təşkil edir.

Beləliklə, kitabxanalar bilik cəmiyyətinin qurulmasına töhfə verməklə yanaşı, ekoloji məsuliyyət daşıyan və planetin qorunmasında aktiv iştirak edən sosial institutlara çevrilirlər.

## ƏDƏBİYYAT

Aulisio, G. J. (2013). Green libraries are more than just buildings. *Electronic green journal, 1*(35).

Fedorowicz-Kruszewska, M. (2021). Green libraries and green librarianship–Towards conceptualization. *Journal of librarianship and information science, 53*(4), 645-654.

Xələfov, A. A. (2006). *XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana*

*işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar)*. AMEA Mərkəzi Elmi Kitabxanası. http://www.anl.az/el/emb/A.Xelefov/eserleri/kitablar/xa_XXI.pdf

İslamova, Ş. (2024). COP29 və yaşıl kitabxanalar: ekoloji dayanıqlıq üçün yeni perspektivlər. *İqtisadiyyat*, (48), s. 3. https://www.elibrary.az/docs/qazet/qzt2024_8258.pdf

IFLA, ENSULIB Section. (2022). *What is a green library?* https://www.ifla.org/g/environment-sustainability-and-libraries/ifla-green-library-definition/

International Science Council. (2020). *Conversations on rethinking human development*. https://doi.org/10.24948/2020.09

**Shafag İsrafil gizi Islamova**
*Head of the library of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,*
*Doctor of Historical Sciences*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# THE HISTORY OF GREEN LIBRARIES: ECOLOGICAL APPROACHES FROM THE PAST TO THE FUTURE

***Abstract:*** *The article investigates the historical development of "green libraries" and the integration of ecological sustainability principles into library practices. It analyzes the pre-industrial era, when libraries primarily functioned as centers of functionality and knowledge dissemination, yet ecological approaches remained largely undeveloped. The influence of industrialization and new construction materials on library architectural styles during the 19th and 20th centuries is examined, with emphasis on the limited attention given to environmental concerns in that period. In the 21st century, green libraries are shown to prioritize principles of sustainable development, energy efficiency, and social responsibility. The conclusion highlights that green libraries have evolved into pivotal centers where knowledge and ecological awareness converge across past, present, and future.*

***Keywords:*** *Green libraries, ecological sustainability, industrial era, architectural history, energy efficiency, digitalization, library management, ecological awareness.*

**Шафаг Исрафил кызы Исламова**
*Заведующий библиотекой Института экономики*
*Министерства науки и образования*
*Азербайджанской Республики,*
*доктор философии по исторических наук*
***Электронная почта:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# ИСТОРИЯ ЗЕЛЕНЫХ БИБЛИОТЕК: ЭКОЛОГИЧЕСКИЕ ПОДХОДЫ ОТ ПРОШЛОГО К БУДУЩЕМУ

***Резюме:*** *В статье исследуется историческое развитие «зелёных библиотек» и интеграция принципов экологической устойчивости в библиотечную деятельность. Анализируется доиндустриальная эпоха, когда библиотеки в основном функционировали как центры функциональности и распространения знаний, однако экологические подходы ещё не получили широкого распространения. Рассматривается влияние индустриализации и новых строительных материалов на архитектурный стиль библиотек в XIX–XX веках, при этом отмечается незначительное внимание к вопросам окружающей среды в тот период. В XXI веке подчёркивается выдвижение зелёными библиотеками на передний план принципов устойчивого развития, энергоэффективности и социальной ответственности. В заключение акцентируется, что зелёные библиотеки превратились в центры пересечения знаний и экологического сознания от прошлого к будущему.*

***Ключевые слова:*** *Зелёные библиотеки, экологическая устойчивость, индустриальная эпоха, история архитектуры, энергоэффективность, цифровизация, управление библиотеками, экологическое сознание.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 10.02.2025; çapa qəbul edilib – 04.04.2025.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

======================================================

**UOT/UDC/УДК** ***791.4:33(479.24)***  DOI 10.5281/zenodo.18342528

**Vəfa Xanlar qızı Həşimova**
*AR ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, i.ü.f.d.*
***E-mail:*** vefa.hashimli@yandex.ru
*https://orcid.org/0000-0002-0392-1329*
**Kənan Tərlan oğlu Süleymanov**
*ADMİU-nun magistrantı*
***E-mail:*** kenansuleymanov802@gmail.com
*https://orcid.org/0009-0006-4249-926X*

# AZƏRBAYCANDA KİNEMATOQRAFİYA MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Xülasə:*** *Kinematoqrafiya sənayesi, mədəniyyətin ən vacib elementlərindən biri olaraq, dünya iqtisadiyyatında mühüm yer tutur. Film istehsalı yalnız əyləncə və incəsənət sahəsində deyil, həm də iqtisadi cəhətdən böyük təsirə malikdir. Kino müəssisələrinin gəlir mənbələri, müxtəlif ölkələrdəki kino sənayesinin inkişafına, iqtisadiyyatına və mədəniyyət siyasətinə bağlı olaraq fərqlənir. Məqalədə ölkəmizdə mövcud olan kinematoqrafiya müəssisələrinin mövcud vəziyyəti təhlil olunmuşdur.*

***Açar sözlər:*** *Kino sənayesi, kinematoqrafiya, teatr, bilet satışı, mədəniyyət.*

## GİRİŞ

Ümumiyyətlə, dünyada kinematoqrafiya müəssisələrinin gəlir mənbələri müxtəlif kateqoriyalar əsasında formalaşır. Qeyd etmək lazımdır ki, kinematoqrafiya müəssisələrinin gəlir mənbələri çoxşaxəlidir və bu mənbələr ölkənin iqtisadi inkişafına, sənayenin strukturuna və texnoloji inkişafına görə dəyişir *(Тагиева, 2024)*. Ümumilikdə kino gəlirləri bir neçə

əsas kateqoriyaya bölünə bilər:

1. Bilet satışı (Kinoteatr gəlirləri): Kino müəssisələrinin əsas gəlir mənbələrindən biri kinoteatrlarda nümayiş etdirilən filmlərdən əldə edilən bilet satışlarıdır. Bu model daha çox ənənəvi kino bazarlarında, xüsusilə inkişaf etmiş ölkələrdə dominantdır.
2. Televiziya yayımı və lisenziyalar: Kino istehsalçıları və studiyalar, filmlərin televiziyada yayımlanması üçün hüquqlarını satmaqla gəlir əldə edirlər. Həmçinin, filmlərin rəqəmsal platformalarda (Netflix, Amazon Prime, Hulu) yayımlanması da gəlir mənbələri arasında yer alır.
3. DVD/Blu-ray satışı və kirayəsi: Filmlərin fiziki formatda satışından gəlir əldə edilməsi (DVD, Blu-ray) və onlayn kirayə platformaları da kino müəssisələrinin gəlir qaynaqlarından biridir.
4. Reklam və sponsorluq: Kino filmləri üçün reklam və sponsorluq, xüsusilə yüksək büdcəli filmlər üçün mühüm gəlir mənbəyi təşkil edir. Reklamlar, filmlərin istehsalında və marketinqində istifadə olunan sponsorluq müqavilələri ilə dəstək olunur.
5. Məhsul ticarəti (merçendayzinq): Kino məhsullarının ticarəti, xüsusilə filmin məşhur karakterləri ilə əlaqəli əşyaların (T-shirt, plakatlar, oyuncaq figurları və s.) satışından əldə edilən gəlir çox mühüm ola bilər.
6. Dövlət dəstəyi və subsidiyalar: Bir çox ölkədə kino sənayesinə dövlət maliyyə dəstəyi və subsidiyalar verilir. Dövlətin maliyyə yardımları, xüsusilə yerli kino istehsalını dəstəkləyir və film istehsalçılarına vergi güzəştləri təmin edir.
7. Beynəlxalq satış və ixrac: Filmlərin xarici bazarlarda satışından və nümayişlərindən əldə edilən gəlir, xüsusilə geniş yayılmış kommersiya filmləri üçün əhəmiyyətli bir gəlir mənbəyidir. Bu model çox vaxt ABŞ və Avropa ölkələrində üstünlük təşkil edir *(Hediger & Vonderau, 2025)*.

## MÜZAKİRƏ

ABŞ kino sənayesi dünya üzrə ən böyük və inkişaf etmiş bazara sahibdir. Filmlərin əsas gəlir mənbəyi bilet satışlarıdır. Hollywood studiyaları, yüksək büdcəli kommersiya filmlərinin istehsalını prioritet sayır və bu filmlər həm daxili bazarda, həm də beynəlxalq bazarda böyük gəlir əldə edir. ABŞ-da, həmçinin televiziya hüquqlarının satışı və rəqəmsal platformaların istifadəsi, kino sənayesi üçün əhəmiyyətli gəlir mənbələrindəndir. Reklam və məhsul ticarəti də böyük bir yer tutur, filmlərin məşhurlaşması ilə bağlı olan merçendayzinq hər il milyonlarla dollar qazanc gətirir *(Mammadova & Abdullayev, 2025)*.

Fransa xüsusilə yerli kino istehsalını dəstəkləmək üçün müxtəlif dövlət dəstəyi proqramlarına malikdir. Dövlət tərəfindən verilən

subsidiyalar və vergilərdən azadolmalar, fransız kino sənayesinin əsas gəlir mənbəyini təşkil edir. Televiziya hüquqları və beynəlxalq satışlar da əhəmiyyətli gəlir mənbəyidir. Fransa həmçinin, film festivalları ilə tanınır (məsələn, Cannes), bu festivallar yerli kino sənayesini dünyaya təqdim etmək və beynəlxalq bazarda tanıtmaq üçün böyük bir platformadır.

Almaniyada kino sənayesi dövlətin və özəl sektorun güclü əməkdaşlığı ilə inkişaf edir. Dövlət dəstəyi və film fondları alman kino sənayesinin böyük bir hissəsini təşkil edir, eyni zamanda film yayımı və beynəlxalq satışlar ilə də yaxşı nəticələr əldə edir. DVD və Blu-ray satışları və onlayn kirayə platformaları da Alman kinematoqrafiyasının gəlir mənbələrindəndir *(Hediger & Vonderau, 2025)*.

Çin son illərdə ən sürətlə böyüyən kino bazarlarından biridir. Çin hökuməti öz yerli film istehsalçılarını dəstəkləmək məqsədilə çoxlu dövlət subsidiyaları təqdim edir. Bununla yanaşı, bilet satışları və beynəlxalq satışlar, xüsusilə Hollywood filmləri üçün böyük gəlir mənbəyidir. Çin bazarında, həmçinin nüfuzlu film festivalları və məhsul ticarəti (merçendayzinq) yeni gəlir axınları yaradıb.

Böyük Britaniya kino sənayesinin gəlir mənbələri arasında bilet satışları, televiziya və rəqəmsal platforma yayımı, dövlət dəstəyi önəmli yer tutur. Hökumət yerli kino istehsalçılarına, xüsusilə müstəqil kinoya ciddi maliyyə dəstəyi verir. Beynəlxalq satışlar və film festivalları, Britaniya filmlərinin dünya bazarlarında uğurla tanıdılmasına və gəlir əldə edilməsinə kömək edir.

Rusiyada kino sənayesi böyük dövlət dəstəyi ilə inkişaf edir. Dövlət subsidiyaları və vergi güzəştləri, Rusiya kino istehsalının əsas dəstəkləyici qüvvəsidir. Bilet satışları, televiziya və rəqəmsal platforma hüquqları böyük gəlir gətirir. Rusiya filmlərinin beynəlxalq bazarlara ixracı da əsas gəlir mənbəyidir *(Тагиева, 2024)*.

Dünya ölkələrində kino müəssisələrinin gəlir mənbələri arasında müəyyən oxşarlıqlar və fərqlər mövcuddur. İqtisadiyyatın inkişafı, dövlət siyasətləri, texnoloji dəyişikliklər və mədəniyyətin təsiri ilə əlaqədar olaraq kino sənayesinin gəlir mənbələri müxtəlif ölkələrdə fərqlənir. ABŞ və Avropada bilet satışları, televiziya hüquqları və beynəlxalq satışlar ən önəmli gəlir mənbələridirsə, inkişaf etməkdə olan bazarlarda (məsələn, Çin və Hindistan) dövlət dəstəyi və dövlət subsidiyaları ön planda yer alır. Azərbaycan kimi ölkələr bu qlobal təcrübələri nəzərə alaraq yerli kino sənayesini inkişaf etdirmək və gəlir mənbələrini artırmaq üçün uyğun modelləri tətbiq etməlidir. Beləliklə, hər bir ölkənin kino sənayesində gəlir mənbələrini düzgün müəyyənləşdirmək və inkişaf etdirmək üçün

özünəməxsus yanaşmalar və strateji tədbirlər vacibdir *(Musa, 2022)*.

***Azərbaycanda kino müəssisələrində mövcud olan vəziyyət***

Azərbaycanda kinoteatrların sayı, dövlət və qeyri-dövlət sektorları arasında bölünür. Kinoteatrlar əsasən iki əsas kateqoriyaya ayrılır: dövlət və qeyri-dövlət kinoteatrları. Hər iki sektorun fəaliyyəti kino sənayesinin inkişafına və mədəniyyət həyatına əhəmiyyətli təsir göstərir. Dövlət kinoteatrları, xüsusən yerli və tarixi filmləri nümayiş etdirmək və milli kinonun inkişafını dəstəkləmək məqsədini güdür. Dövlət kinoteatrları, əsasən Mədəniyyət Nazirliyi və digər dövlət orqanları tərəfindən idarə edilir. Azərbaycan Film Studiyası və digər dövlət kino qurumları ilə sıx əlaqə saxlanılır. Azərbaycanda dövlət kinoteatrlarının sayı azdır və bu kinoteatrlar əksər hallarda paytaxt Bakı şəhərində və böyük şəhərlərdə yerləşir. Dövlət kinoteatrlarının fəaliyyətində əsas diqqət yerli kino istehsalına və mədəniyyətə verilir.

Qeyri-dövlət kinoteatrları əsasən özəl sektor tərəfindən idarə olunur və burada əsasən kommersiya məqsədləri güdülür. Bu kinoteatrlar yerli, eyni zamanda xarici filmləri nümayiş etdirərək geniş auditoriya cəlb etməyə çalışır. Azərbaycanda qeyri-dövlət kinoteatrlarının sayı son illər ərzində artmışdır və bu kinoteatrlar əsasən müasir avadanlıqlarla təchiz olunmuş, daha geniş auditoriya üçün müxtəlif filmlər təqdim edir.

Cədvəl 1-ə nəzər saldıqda görürük ki, əgər 2005-ci ildə ölkəmizdə dövlət kinoteatrların sayı 20 ədəd təşkil edirdisə, 2023-cü ildə isə artıq 2 ədəd təşkil etmişdir. Qeyri-dövlət kinoteatrların sayı 2005-ci ildə 1 ədəd idisə, 2023-cü ildə 4 ədəd olmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, Bakı şəhərində və ölkənin digər böyük şəhərlərində, qeyri-dövlət kinoteatrları daha çox yayılıb. Məsələn, Park Cinema, CinemaPlus, Nizami Kino Mərkəzi, Baku Cinema Center və digər tanınmış kinoteatrlar qeyri-dövlət sektoru tərəfindən idarə edilir. Bu kinoteatrlar müasir dizayn, yüksək keyfiyyətli görüntü və səs texnologiyaları ilə təchiz edilmiş və ən son filmləri nümayiş etdirir *(State Statistical Committee of the Republic of Azerbaijan [SSC], 2023a)*.

Cədvəl 1-də ölkəmizdə kinozalların sayına nəzər salsaq görərik ki, qeyri-dövlət sahəsində kinozalların sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunur. Kinozallarda yerlərin sayı dövlət müəssisələrində 2005-ci ildə 11529 idisə, 2023-cü ildə bu rəqəm 10,5 dəfə azalaraq 1083, qeyri-dövlət müəssisələrində yerlərin sayı isə 2005-ci ildə 367 idisə, 2023-cü ildə təxminən 30 dəfə artaraq 10977 olmuşdur *(SSC, 2023a)*.

Azərbaycanın kino bazarında dövlət kinoteatrları az sayda olmaqla yerli filmlərin nümayişinə və mədəniyyətin inkişafına xidmət edir. Qeyri-

dövlət kinoteatrları isə kommersiya məqsədini güdür və müasir kino təcrübəsi təqdim edir. Hər iki sektorun inkişafı Azərbaycan kino sənayesinin güclənməsi və mədəniyyətin zənginləşməsi üçün vacibdir.

**Cədvəl 1**

*Azərbaycanda kinoteatrlar (ilin sonuna)*

| Sayı | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Kinoteatrların sayı - cəmi** | **21** | **9** | **10** | **5** | **5** | **6** | **6** |
| o cümlədən: | | | | | | | |
| dövlət | 20 | 8 | 5 | 2 | 2 | 2 | 2 |
| qeyri-dövlət | 1 | 1 | 5 | 3 | 3 | 4 | 4 |
| **Kinozalların sayı - cəmi** | **...** | **12** | **28** | **61** | **73** | **82** | **84** |
| o cümlədən: | | | | | | | |
| dövlət | ... | 9 | 8 | 5 | 5 | 5 | 5 |
| qeyri-dövlət | ... | 3 | 20 | 56 | 68 | 77 | 79 |
| **Kinozallarda yerlərin sayı - cəmi** | **11896** | **3378** | **4633** | **10149** | **11355** | **11928** | **12060** |
| o cümlədən: | | | | | | | |
| dövlət | 11529 | 3032 | 1807 | 1083 | 1083 | 1083 | 1083 |
| qeyri-dövlət | 367 | 346 | 2826 | 9066 | 10272 | 10845 | 10977 |
| **Kinoseanslara gələnlərin sayı, min nəfər** | **115,4** | **83,4** | **559,4** | **342,3** | **429,7** | **1594,6** | **1890,2** |
| o cümlədən: | | | | | | | |
| dövlət | 79,1 | 20,9 | 165,0 | 13,1 | 5,5 | 23,6 | 14,4 |
| qeyri-dövlət | 36,3 | 62,5 | 394,4 | 329,2 | 424,2 | 1571,0 | 1875,8 |

Azərbaycanda özəl sektorda fəaliyyət göstərən bir neçə kino istehsal studiyası və kinoteatrlar mövcuddur. Ölkədə son illər özəl kinoteatr şəbəkələrinin artması müşahidə edilir, lakin bu kinoteatrların əksəriyyəti beynəlxalq kinoları nümayiş etdirir. Özəl sektorda müstəqil kino istehsalı ilə məşğul olan bir neçə şirkət və prodüserlər mövcuddur, lakin onların maliyyə və texnoloji resursları çox məhduddur.

2003-2023-cü illərdə Azərbaycanda kinoseanslara gələnlərin sayı kino sənayesinin inkişafı və müxtəlif sosial-iqtisadi faktorlarla əlaqəli olaraq

dəyişmişdir. Bu dövr ərzində kinozallara gələnlərin sayına təsir edən amillər arasında ölkədə kino sənayesinin inkişafı, beynəlxalq filmlərin nümayişi, mədəni tədbirlərin təşkili və müasir kinoteatrların açılması kimi faktorlar yer alır. 2003-cü ildən 2009-cu iləday Azərbaycanda kinoseanslara gələnlərin sayı nisbətən az olmuşdur. Bu dövr əsasən yerli kino sənayesinin və infrastrukturun inkişaf etmədiyi bir mərhələ idi. Ən çox izlənilən filmlər xarici istehsal olan Hollivud və Rusiyanın filmləri idi. Kinozalların sayı da məhdud idi və yalnız Bakı şəhərində ən çox kino zalları fəaliyyət göstərirdi. Bu dövr ərzində kinoseanslara gələnlərin sayı Qrafik 1-ə nəzər saldıqda aydın şəkildə görmək olur.

**Qrafik 1**

*Kinoseanslara gələnlərin sayı (min nəfər), 2003-2023-cü illər*




Qrafik 1-ə əsasən 2003-2005-ci illər arasında kinoteatrların texnoloji imkanları məhdud idi və kinoseanslara gələnlərin sayı nisbətən az idi. 2006-2009-cu illər ərzində kino sənayesinin inkişafı müşahidə olunmağa başlasa da kinoteatrlarda yalnız limitli sayda filmlər göstərilirdi və bu, ümumilikdə kinoseanslara gələnlərin sayını artırmamışdır. 2010-2015-ci illərdə Azərbaycanda kino sənayesinin inkişaf etdiyi, kinozalların keyfiyyətinin yüksəldiyi və beynəlxalq filmlərin çoxluğunun kinoteatrlarda nümayiş etdirildiyi bir mərhələ olmuşdur. Özəl sektor tərəfindən Bakı və digər iri şəhərlərdə yeni və müasir kinoteatrlar açıldı. Kinoseanslara gələnlərin sayı bu dövrdə müəyyən artım göstərmişdir. 2010-2013-cü illərdə Azərbaycan kino bazarının inkişafı və yeni kinoteatrların açılması ilə kinoseanslara gələnlərin sayı artmağa başladı. 2017-2018-ci illərdə yeni kinoteatrların açılması və daha çox kommersiya məqsədli filmlərin nümayişi ilə kinoseanslara gələnlərin sayı 1.3 milyon nəfərə yaxınlaşdı *(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [DSK], 2023)*. 2016-2018-ci illər

arasında kinoseanslara gələnlərin sayı təxminən 1.5 milyon nəfər oldu *(SSC, 2023b)*. 2019-cu ildə Azərbaycanda kinozallara gələnlərin sayı təxminən 1.7 milyon nəfərə çatdı *(UNİC, 2023).*

2020-ci ildə pandemiya (COVID-19) səbəbindən kinoteatrlar müvəqqəti olaraq bağlandı və kinoseanslara gələnlərin sayında azalma müşahidə olundu. Pandemiyanın bitməsindən sonra kino sənayesində bir bərpa dövrü başlandı. Kinoteatrlarda nümayiş olunan filmlərin sayının artması və müasir kino zallarının açılması nəticəsində kinoseanslara gələnlərin sayı yenidən artdı. Artıq 2023-cü ildə pandemiyadan sonra kino zallarının yenidən açılması ilə kinoseanslara gələnlərin sayı təxminən 1.8 milyon nəfər oldu. Bu dövr kino sənayesinin bərpası ilə yanaşı, həm də yerli kino istehsalının artması ilə əlaqədar olaraq artan bir maraqla müşahidə olundu *(DSK, 2023)*.

**Qrafik 2**

*Kinoseanslara gələnlərin sayı (hər 1000 nəfərə)*




Azərbaycandakı kinoteatrlarda nümayiş olunan filmlərin mənşəyi çoxşaxəli olmuşdur. Bu filmlərin bir hissəsi yerli istehsalın məhsulu olub, digər bir hissəsi isə xarici istehsallardan ibarət olub. Azərbaycanda 2023-cü ildə yerli kino istehsalı da müəyyən qədər artmış və bir neçə yeni film kinoteatrlarda nümayiş etdirilmişdir. Bu filmlər adətən yerli mədəniyyətə, tarixə, cəmiyyətə aid mövzuları əhatə edir və milli kino sənayesini inkişaf etdirmək məqsədini güdür. Yerli istehsalın əsas məqsədi həm xarici bazarda yerli filmləri tanıtmaq, həm də milli kino mədəniyyətini təşviq etməkdir.

Aşağıdakı Qrafik 3-də 2023-cü ildə kinoteatrlarda nümayiş olunan

KİTABXANA.AZ, 2025, aprel, №1(42), 14-24

filmlərin mənşəyi əks olunmuşdur.

**Qrafik 3**

*2023-cü ilin sonuna kinoteatrlarda nümayiş olunan filmlərin mənşəyi, faizlə*




Qrafik 3-ə nəzər salsaq görərik ki, 2023-cü ilin sonuna əsasən ölkəmizdə kinoteatrlarda nümayiş olunan filmlərin 84,8%-ni xarici filmlər, 15,2%-ni isə milli filmlər təşkil edir. 2023-cü ildə kinoteatrlarda nümayiş olunan filmlər arasında komediya, dram, aksiyon, animasiya və fantastika janrları üstünlük təşkil etmişdir. Bu filmlər böyüklər, eyni zamanda uşaqlar üçün müxtəlif zövqlərə uyğun olaraq seçilmişdir. Xarici istehsallar, xüsusən də Hollywood, türk və rus filmləri Azərbaycan kinoteatrlarında geniş auditoriya tərəfindən izlənilmişdir. Bu isə kino mədəniyyətinin müxtəlifliyini və qlobal kinoya olan tələbatı göstərir *(SSC, 2023a)*.

Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə kinozalların sayı və paylanması ölkənin kino sənayesinin inkişafında mühüm rol oynayır. Kinozallar mədəniyyətin təşviqi və əhalinin əyləncə tələbatının qarşılanmasında əhəmiyyətli bir elementdir. Bu bölmədə Azərbaycan iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə kinozalların vəziyyəti və onların inkişafı barədə məlumat təqdim edəcəyik. Hər bir iqtisadi rayonun özünün kinozallara olan tələbatı və kino mədəniyyətinin inkişaf səviyyəsi fərqlidir. Kinozalların mövcudluğu və keyfiyyəti həmin rayonun sosial-iqtisadi inkişaf səviyyəsinə, əhalisinin sayı və tələbinə bağlıdır.

**Cədvəl 2**

*2023-cü ilin sonuna Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə kinozallar*

| İqtisadi rayonlar və inzibati ərazi vahidlər | Kinozalların sayı, cəmi | Kinoseanslara gələn tamaşaçıların sayı, min nəfər |
|---|---|---|
| Azərbaycan Respublikası | 84 | 1890,2 |
| Bakı şəhəri - cəmi | 79 | 1883,7 |
| o cümlədən: | | |
| Nəsimi rayonu | 51 | 1373,8 |
| Nizami rayonu | 27 | 482,0 |
| Səbail rayonu | 1 | 27,9 |
| Naxçıvan Muxtar Respublikası - cəmi | 5 | 6,5 |
| o cümlədən: | | |
| Naxçıvan şəhəri | 5 | 6,5 |

Cədvəl 2-yə əsasən deyə bilərik ki, ölkəmizdə kinozalların böyük əksəriyyəti Bakı şəhəri üzrə cəmlənmişdir *(SSC, 2023a)*. Bakı kinozalların ən çox olduğu rayondur. Burada həm dövlət, həm də özəl sektordan çox sayda kinoteatr mövcuddur. Bakı şəhərində müasir avadanlıqlarla təchiz olunmuş kino mərkəzləri fəaliyyət göstərir. Çünki şəhər mədəniyyət, sənət və əyləncə mərkəzi olaraq inkişaf edir və bu da kinozallara tələbatı artırır.

## NƏTİCƏ

Azərbaycanın müxtəlif iqtisadi və inzibati rayonlarında kinozalların inkişafı ilə bağlı bir neçə problem mövcuddur. Kinoteatrların keyfiyyəti və texnoloji imkanları bölgələrdə fərqlidir. Bakı və digər iri şəhərlərdə kinoteatrlar müasir texnologiyalarla təchiz olunmuşdur, lakin regionlarda bu cür kinozalların sayı azdır. Kinozalların inkişafı üçün dövlət dəstəyi və subsidiyalar artmalıdır. Bölgələrdə kino mədəniyyətinin təşviqi və kino festivallarının təşkil edilməsi vacibdir. Yeni kino mərkəzlərinin açılması və mövcud kinozalların yenidən təchiz edilməsi tələbatı artıracaq. Azərbaycanda regionlarda kinozalların sayı daha az olsa da, bu sahədə müsbət inkişaf müşahidə olunur. Hər bir bölgədə ən azı bir neçə kino zalının olması vacibdir. Böyük şəhərlərdə olduğu kimi regionlarda da kino festivalları və kino təbliğatı mövzularında yeni layihələr həyata keçirilə bilər. Bu da kinozalların sayının artmasına və mədəniyyətin zənginləşməsinə səbəb olar. Azərbaycanda kinozalların sayı və yerləşməsi, əsasən ölkənin iqtisadi və inzibati rayonlarının inkişafına uyğun olaraq dəyişir. Bakı və digər iri şəhərlərdə kinozalların sayı çox olsa da regionlarda kino sənayesinin inkişafı üçün daha çox tədbir və dəstək lazımdır.

Kinozalların inkişafı mədəniyyətin təşviqi və əhalinin istirahət tələbatının ödənilməsində mühüm rol oynayır.

## ƏDƏBİYYAT


Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2023). *Regionların sosial-iqtisadi inkişafı.*

Hediger, V., & Vonderau, P. (2025). Record, rhetoric, rationalization: Industrial organization and film. In *Films That Work* (pp. 35-49). Routledge.

Mammadova, E., & Abdullayev, A. (2025). Impact of Theatre and Cinema Culture on Economy. *Luminis Applied Science and Engineering, 2*(3), 88-97.

Musa, B. A. (2022). The glocalization of films and the cinema industry. In *Handbook of culture and glocalization* (pp. 272-288). Edward Elgar Publishing.

State Statistical Committee of the Republic of Azerbaijan. (2023a). *Statistical yearbook of Azerbaijan.*

State Statistical Committee of the Republic of Azerbaijan. (2023b). *Trade in Azerbaijan.*

Тагиева, А. Р. (2024). Культурная жизнь современного Азербайджана. *Наука и реальность / Science & Reality, 1*(17), 127-131.



**Vafa Khanlar gizi Hashimova**

*Leading researcher at the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan, PhD in Economics*

***E-mail:*** vefa.hashimli@yandex.ru

*https://orcid.org/0000-0002-0392-1329*

**Kenan Terlan oglu Suleymanov**

*Master's student ASUCA*

***E-mail:*** kenansuleymanov802@gmail.com

*https://orcid.org/0009-0006-4249-926X*


# ASSESSMENT OF THE ECONOMIC SITUATION OF CINEMATOGRAPHIC ENTERPRISES IN AZERBAIJAN


***Abstract:*** *The film industry is a vital component of culture and the global economy, exerting significant influence on the spheres of*

*entertainment, art, and economic activity. Revenue sources for cinematographic enterprises vary depending on the level of development of the national film industry, the state of the economy, and the cultural policies of individual countries. This article examines the current state of cinematographic institutions in Azerbaijan.*

***Keywords:*** *Film industry, cinematography, theater, ticket sales, culture.*

**Вафа Ханлар кызы Гашимова**
*В.н.с. Института экономики Министерства науки и образования Азербайджанской Республики,*
*Доктор философии по экономике*
***Электронная почта***: vefa.hashimli@yandex.ru
*https://orcid.org/0000-0002-0392-1329*
**Кенан Терлан оглы Сулейманов**
*Магистрант АГУКИ*
***Электронная почта***: kenansuleymanov802@gmail.com
*https://orcid.org/0009-0006-4249-926X*

## ОЦЕНКА ЭКОНОМИЧЕСКОГО ПОЛОЖЕНИЯ КИНЕМАТОГРАФИЧЕСКИХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ

***Резюме:*** *Кинематографическая промышленность - важный элемент культуры и мировой экономики, существенно влияющий на сферы развлечений, искусства и экономику. Источники доходов кинематографических предприятий варьируются в зависимости от уровня развития киноиндустрии, экономического состояния и культурной политики стран. В статье анализируется современное состояние кинематографических учреждений в Азербайджане.*

***Ключевые слова:*** *Киноиндустрия, кинематография, театр, продажа билетов, культура.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 10.02.2025; çapa qəbul edilib – 20.03.2025.



KİTABXANA.AZ, 2025, aprel, №1(42), 25-34

HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

**UOT/UDC/УДК** ***621.395.722***
DOI 10.5281/zenodo.18342720

**Gulnara Akif gizi Fataliyeva**
*PhD in Economics, leading researcher,*
*Institute of Economics of the Ministry of Science*
*and Education of the Republic of Azerbaijan*
***E-mail:*** feteliyevagulya@gmail.com
*https://orcid.org/0000-0001-8918-6160*

# DEVELOPMENT TRENDS OF 5G MOBILE TECHNOLOGY IN THE WORLD AND IN AZERBAIJAN

***Abstract:*** *The research work is dedicated to studying the latest trends in 5G, the newest generation of mobile technology. For this purpose, the modern state in the field of fifth generation broadband internet services in the world was studied. Also, the current situation of mobile broadband internet in the Republic of Azerbaijan was analyzed, as well as the work done on the development of 5G services was studied. Comparative and statistical analysis, systematic approach, generalization methods were used in the research work. During the analysis, official documents, reports, and statistical indicators prepared by global organizations – International Telecommunication Union (ITU), GSMA Intelligence, as well as official data from the country's mobile operators and legislative acts were referred to.*

***Keywords****: Digitalization, mobile network, technology, ICT, infrastructure, internet.*

## INTRODUCTION

Digitalization of the economy is one of the key factors characterizing the development of countries in the modern era. The level of digitalization

of a country's economy is measured and assessed based on indicators related to information and communication technology (ICT) infrastructure *(Fataliyeva, 2024)*. One of these indicators is broadband internet. Internet speeds of approximately 256 kbit/s and higher are considered broadband. This type of internet connection is suitable for handling large amounts of data quickly and reliably compared to traditional dial-up internet connections *(Fataliyeva, 2023)*.

A form of broadband internet is mobile broadband (2G, 3G, 4G, 5G), which is provided by mobile operators. The present study examines the current state of next-generation mobile broadband internet, specifically 5G, both globally and in Azerbaijan.

## DISCUSSION

### *The current state of the mobile broadband market in Azerbaijan*

Today, the coverage of mobile broadband in Azerbaijan is gradually expanding. The foundation of this type of service was first laid in 2009 – by the Azerfon company with the introduction of 3G technology. In 2012, the Azercell operator launched 4G technology.

**Diagram 1**
*Mobile broadband internet subscribers in Azerbaijan (State Statistical Committee of the Republic of Azerbaijan [SSC], 2025b, p. 13)*




The number of mobile broadband internet subscribers in the country is experiencing a dynamic increase. As can be seen from the data in Diagram 1, the number of this type of internet subscribers increased by 8.8% in 2021, 16.1% in 2022, 10.3% in 2023, and 5% in 2024 compared to a year earlier, reaching 9.2 million subscribers. In the same year, the number of

subscribers per 100 people was 90.4.

According to statistical indicators, during 2018-2024, the specific weight of the population living in the areas covered by the 3G network in the total number of the country's population has increased by 12%, from 72% to 84%.

Over the past few years, the number of 4G mobile internet users has grown more rapidly. As of 2020, 4G population coverage has surpassed 3G. In 2024, 95% of the country's population benefited from mobile services based on 4G (LTE and WiMAX) technology. (Diagram 2). With this result, Azerbaijan exceeded the world average (90.1%).

**Diagram 2**

*Population coverage by 3G and 4G (LTE/WiMAX) mobile networks in Azerbaijan, % (SSC, 2025a, p. 12)*




The increase in the number of Internet users who prefer the 4G network is due to the fact that mobile operators are increasing the number of stations working on LTE technology. For example, while the total number of 4G base stations of Azercell LLC was 3,124 in 2022, it increased slightly in 2023 to 3,431. Bakcell company has more than 8000 4G base stations. In 2021, the number of LTE base stations of the Nar operator was 2849 *(Nar, 2021, p. 23).*

***Development features of 5G internet services in the world***

Currently, the latest generation of mobile communication technology 5G is being implemented in most countries of the world. 5G has the potential to reduce latency and increase energy efficiency, and allows a large number of machines, objects, and devices to be connected to the network at the same time, providing high-quality and stable connectivity,

thereby boosting the development of the digital ecosystem *(ITU, 2023, p. 20)*. For example, if the average download speed is 8 Mbps on 3G and 60-90 Mbps on 4G, this amounts to 150-200 Mbps on 5G. Also, the latency is 0.1 seconds in 3G and 0.05 seconds in 4G, while in 5G it is 0.001 seconds (Table 1).

**Table 1**
*The speed of 5G mobile technology (Azercell, 2024)*

| Name of mobile phone generations | 2G | 3G | 4G | 5G |
|---|---|---|---|---|
| **Average download speed** | 0.1 Mbps | 8 Mbps | 60-90 Mbps | 150-200 Mbps |
| **Latency** | 500ms (0.5 seconds) | 100ms (0.1 seconds) | 50ms (0.05 seconds) | 1ms (0.001 seconds) |

One of the main advantages of 5G is its potential to bridge the digital divide. Thus, this generation network can provide high-speed broadband Internet access for the population in areas where fixed networks were previously inaccessible *(GSMA Intelligence, 2024, b, p.8)*.

The number of 5G connections, which were first launched in 2019, exceeded 1.5 billion worldwide by the end of 2023. Thus, it has been the fastest growing mobile technology to date compared to previous generation networks *(GSMA Intelligence, 2024, b, p.6)*. By the end of 2025, the number of subscriptions worldwide is predicted to exceed 2.9 billion *(Ericsson, 2025, p.1)*.

By the end of 2022, 34% of operators around the world had launched or tested private 5G networks. By the end of 2023, this figure had reached 64% *(GSMA Intelligence, 2024, b, p.26)*. Globally, 5G is currently available in more than 100 countries. By the end of 2023, 261 operators in 101 countries had launched 5G mobile services *(GSMA Intelligence, 2024, a, p.22)*. According to estimates, the global 5G infrastructure market size was $9.1 billion in 2022 and $16.7 billion in 2023 *(Grand View Research, 2024)*.

The main barriers to the deployment of 5G are high infrastructure costs, device availability, and regulatory hurdles *(ITU, 2023, p.20)*. The expansion of the coverage of the fifth generation mobile network requires

the installation of new base stations as well as the improvement of the existing infrastructure. A sufficient investment is required for this. From this point of view, it is important to have public-private cooperation. Along with private mobile companies in countries around the world, the government also pays special attention to this field. This highlights the importance of public-private cooperation.

In modern times, developed countries around the world are investing more in digital transformation, especially in technologies such as 5G and fiber-optic networks. For example, the Australian government has allocated $21.2 million to accelerate the implementation of 5G in the country. The amount of funding directed by the Scottish government to the construction of centers related to 5G services across the country is equal to 5.2 million dollars. The government funding allocated to boost the digital revolution in the United Kingdom is $38 million, while the French government's digital investment is $8.4 billion *(GovTech Analytics, 2024, p.16).*

5G technology is expected to provide a greater boost to economic growth. According to research conducted by GSMA Intelligence, a global organization known for its research in the mobile industry, 5G is projected to contribute approximately $900 billion to the global economy by 2030 *(GSMA Intelligence, 2024, b, p.8).*

Countries that have invested more in the development of 5G currently stand out with better results. The 5G Connectivity Index (5GI), compiled by GSMA Intelligence, studies and evaluates the state of 5G mobile networks in 39 countries. In 5G, which consists of 2 categories (5G infrastructure and 5G services), countries score between 0-100. The top countries in the 5G Connectivity Index 2023 were Kuwait (68 points), UAE (59 points), Norway (58 points), Finland (57 points), Qatar (57 points), Denmark (57 points), Hong Kong (57 points), South Korea (56 points), USA (54 points), Singapore (52 points) *(GSMA Intelligence, 2024, b, p.4).* As can be seen, the top performers were mainly oil-rich Arab countries, Northern European countries, countries belonging to the "Asian Tigers" group, and the United States.

According to the data of ITU, in 2023, the coverage of 5G mobile network by population in the world was 38.4% *(ITU, 2023, p.22)*. According to another statistic from the organization, in 2024, the coverage of the 5G mobile network among the population was 51.2% *(ITU, 2025, p.29)*.

According to the data of Table 2, South Korea is among the leading countries in the world in terms of 5G. So, when taken in proportion to the

country's population, there are 670 5G base stations for every 100,000 people. At present, a total of 346,460 5G base stations have been installed in this country.

China, which has the most base stations (4,251,000), has 301 5G base stations per 100,000 people due to its large population. However, this country ranks first in terms of the total number of 5G subscribers. The indicated indicator has exceeded 1 billion.

There are 152,000 5G base stations in Japan, with 122 5G base stations per 100,000 population. Japan is also the leader in the number of 5G subscribers per 100,000 people (Table 2).

**Table 2**

*5G statistics in the world countries (European Commission, 2025, p. 24)*

| Countries | Number of base stations | Number of base stations per 100,000 people | Number of 5G sub scribers | Number of 5G subscri bers per 100,000 people |
|---|---|---|---|---|
| **European Union** | 351,600 | 78 | 159,716,320 | 35,550 |
| **Australia** | 17,880 | 67 | 17,045,000 | 63,937 |
| **Brazil** | 22,800 | 11 | 36,527,346 | 17,300 |
| **China** | 4,251,000 | 301 | 1,031,825,433 | 73,142 |
| **India** | 464,990 | 32 | 160,285,747 | 11,146 |
| **Japan** | 151,985 | 122 | 149,916,953 | 120,399 |
| **South Korea** | 346,460 | 670 | 35,083,274 | 67,843 |
| **United Kingdom** | 23,100 | 34 | 57,285,304 | 83,812 |
| **United States** | 140,000 | 42 | 323,202,570 | 96,503 |

***Work carried out in the field of 5G development in Azerbaijan***

There are no statistical figures related to 5G in Azerbaijan yet. However, it should be noted that for the first time in the republic, Azercell mobile operator launched the 5G network as a pilot project in 2022 *(Azercell, 2023)*. Following this, in 2023, Bakcell and Nar companies launched 5G technology in test mode *(Bakcell, 2024; Nar, 2024)*. Full and widespread implementation of 5G in the republic has not yet occurred.

The issues related to broadband internet services are reflected in important state documents. For example, according to the Strategy for Socio-Economic Development for 2022-2026, one of the main goals in the coming years is to increase the coverage of broadband internet, including high-speed mobile broadband internet (5G) services, to 95% in the republic *(President of the Republic of Azerbaijan, 2022).* The Digital Development Concept also includes the expansion of broadband internet networks and the establishment of 5G networks as key targets *(President of the Republic of Azerbaijan, 2025).*

The 5G Strategy is intended to be developed with the aim of creating and implementing infrastructure for 5G, a new internet technology, for the development of the digital economy in our country. For this purpose, a relevant working group has already been established.

**CONCLUSION**

The results of the conducted comparative analyzes show that positive trends in the use of 5G mobile internet services have been observed over the past 5-6 years. Countries that have invested more in this area are distinguished by their higher achievements. The developed and several industrialized countries of the world are examples of this. In countries with advanced infrastructure for fifth-generation internet services, more users are able to benefit from high-speed broadband internet services, which results in an increase in the coverage of this latest generation of internet. In general, the expansion of 5G networks strengthens the innovation potential of countries and acts as one of the key factors of global competitiveness. As in most countries around the world, the use and coverage of the fifth generation mobile internet network will be expanded in Azerbaijan in the coming years.

## REFERENCES


Azercell. (2023). *Azercell announces its 2022 report.* https://www.azercell.com/az/about-us/press-releases/news/azercell-2022ci-il-uzre-hesabatini-aciqlayir.html

Azercell. (2024). *How fast is 5G?.* https://www.azercell.com/az/personal/plans-and-services/5g.html

Bakcell. (2024). *Bakcell has launched 5G technology.* https://bakcell.com/news/5g

Ericsson. (2025, June 24). *Ericsson Mobility Report.* https://mb.cision.com/Main/15448/4167342/3517379.pdf

European Commission. (2025). *5G Observatory report 2025.* https://digital-strategy.ec.europa.eu/en/policies/5g-observatory-2025

Fataliyeva, G. (2023). *Digital transformation in Azerbaijan – 2023.* "Elm va Bilik" Publishing House. https://economics.org.az/administrator/uploads/media/Gulyabul2024.pdf

Fataliyeva, G. (2024). Analysis of the current situation in the field of ICT infrastructure in Azerbaijan and some countries. In *Proceedings of the II International Scientific and Practical Conference "Modern trends and priorities of sustainable development of regions"* (pp. 60–65). https://iseiran.ru/wp-content/uploads/2024/11/stpr2024.pdf

GovTech Analytics. (2024, February). *Global GovTech industry overview Q1 2024.* https://analytics.dkv.global/govtech/global-govtech-2024.pdf

Grand View Research. (2024). *5G infrastructure market size & trends.* https://www.grandviewresearch.com/industry-analysis/5g-infrastructure-market

GSMA Intelligence. (2024a). *The Mobile Economy 2024.* https://www.gsma.com/solutions-and-impact/connectivity-for-good/mobile-economy/wp-content/uploads/2024/02/260224-The-Mobile-Economy-2024.pdf

GSMA Intelligence. (2024b). *The State of 5G 2024: Introducing the GSMA Intelligence 5G Connectivity Index.* https://data.gsmaintelligence.com/api-web/v2/research-file-download?id=79791087&file=210224-The-State-of-5G-2024.pdf

ITU. (2023). *Measuring digital development: Facts and figures 2023.* https://www.itu.int/hub/publication/d-ind-ict_mdd-2023-1/

ITU. (2025, July). *Measuring digital development: Facts and figures: Focus on landlocked developing countries.* https://www.itu.int/hub/publication/d-ind-ict_mdd-2025-2

Nar. (2021). *Annual Sustainable Development Report 2021.* https://nar.az/media/uploads/files/NARAnnualReport2021az_IREDBHI.pdf

Nar. (2024). *Nar brings 5G speed to Sumgayit.* https://www.nar.az/news-details/nar-5g-suretinisumqayita-getirdi/

President of the Republic of Azerbaijan. (2022, July 22). *On approval of the "Socio-economic Development Strategy of the Republic of Azerbaijan for 2022-2026".* https://e-qanun.az/framework/50013

President of the Republic of Azerbaijan. (2025, January 16). *Digital Development Concept in the Republic of Azerbaijan.* https://static.president.az/upload/Files/2025/01/16/7b72d9ce4de45ac4fee0c4b1c8ffb392_5253488.pdf

State Statistical Committee of the Republic of Azerbaijan. (2025a). *Digital development in Azerbaijan.* https://stat.gov.az/menu/6/statistical_yearbooks/source/digital_development_2025.pdf

State Statistical Committee of the Republic of Azerbaijan. (2025b). *Telecommunications and post in Azerbaijan.* https://stat.gov.az/menu/6/statistical_yearbooks/source/communication_2025.pdf

**Gülnarə Akif qızı Fətəliyeva**
*Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu*
*aparıcı elmi işçi, iqtisad üzrə fəlsəfə doktoru,*
***E-mail:*** feteliyevagulya@gmail.com
*https://orcid.org/0000-0001-8918-6160*

# DÜNYADA VƏ AZƏRBAYCANDA 5G MOBİL TEXNOLOGİYASININ İNKİŞAF MEYLLƏRİ

***Xülasə:*** *Tədqiqat işi ən yeni nəsil mobil texnologiya olan 5G üzrə son tendensiyaların öyrənilməsinə həsr olunmuşdur. Bu məqsədlə dünyada beşinci nəsil genişzolaqlı internet xidmətləri sahəsində müasir vəziyyət tədqiq edilmişdir. Həmçinin Azərbaycan Respublikasında mobil genişzolaqlı internet üzrə hazırkı durum təhlil edilmiş, eləcə də ölkədə 5G xidmətlərinin inkişafı ilə bağlı görülən işlər araşdırılmışdır. Tədqiqat işində müqayisəli və statistik təhlil, sistemli yanaşma, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Təhlillər zamanı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, qlobal təşkilatlardan Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ), Avropa Komissiyası, GSMA Intelligence, Ericsson tərəfindən hazırlanan rəsmi sənəd və hesabatlara, statistik göstəricilərə, həmçinin ölkənin mobil operatorlarının rəsmi məlumatlarına, qanunvericilik aktlarına istinad edilmişdir.*

***Açar sözlər:*** *Rəqəmsallaşma, mobil şəbəkə, texnologiya, İKT, infrastruktur, internet.*

**Гюльнара Акиф кызы Фаталиева**
*кандидат экономических наук, ведущий научный сотрудник Институт Экономики Министерства Науки и Образования Азербайджанской Республики*
***Электронная почта***: feteliyevagulya@gmail.com
*https://orcid.org/0000-0001-8918-6160*

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ МОБИЛЬНОЙ ТЕХНОЛОГИИ 5G В МИРЕ И В АЗЕРБАЙДЖАНЕ

***Резюме:*** *Исследование исследование посвящено изучению последних тенденций в области технологий мобильной связи нового поколения – 5G. В этой связи была проведена оценка современного состояния услуг широкополосного интернета пятого поколения в мире. Также был проанализирован текущий уровень развития мобильного широкополосного интернета в Азербайджанской Республике, а также изучена работа, проведённая в стране по развитию услуг 5G. В исследовании использовались методы сравнительного и статистического анализа, системного подхода и обобщения. В ходе анализа были использованы официальные документы, отчеты и статистические показатели Государственного Комитета Статистики Азербайджанской Республики, международных организаций – Международного Союза Электросвязи (МСЭ), Европейской Комиссии, GSMA Intelligence, Ericsson, а также официальные данные мобильных операторов страны и законодательные акты.*

***Ключевые слова:*** *Цифровизация, мобильная сеть, технология, ИКТ, инфраструктура, интернет.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 12.02.2025; çapa qəbul edilib – 22.03.2025.



KİTABXANA.AZ, 2025, aprel, №1(42), 35-44

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

=====================================================

**UOT/UDC/УДК** ***336.2***

DOI 10.5281/zenodo.18342861

**Azər Məmməd oğlu Əliyev**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "Monetar və fiskal tənzimləmə problemləri" şöbəsinin elmi işçisi*
***E-mail:*** aziko67@mail.ru
*https://orcid.org/0009-0006-7432-072X*

# BÜDCƏ DAXİLOLMALARINDA SAİR GƏLİRLƏRİN ƏHATƏ DAİRƏSİNİN GENİŞLƏNDİRİLMƏSİ YOLLARININ MÜƏYYƏN OLUNMASI

***Xülasə:*** *Büdcə daxilolmalarında sair (digər) gəlirlərin əhatə dairəsinin genişləndirilməsi dövlətin maliyyə dayanıqlığını artırmaq üçün vacib amildir. Məqalədə büdcə daxilolmalarında sair gəlirlərin əhatə dairəsinin genişləndirilməsi yolları təhlil edilir. Bu məqsədlə müəllif müxtəlif strateji yanaşmalar və tədbirlər təklif edir. O, sair gəlirlərin artırılmasının dövlətin maliyyə sabitliyini necə gücləndirə biləcəyini, müxtəlif gəlir mənbələrinin şaxələndirilməsi və maliyyə resurslarının optimallaşdırılması məsələlərini araşdırır. Bununla yanaşı, məqalədə dövlət əmlakının effektiv idarə edilməsi, cərimə və sanksiyaların artırılması, ödənişli xidmətlərin genişləndirilməsi və rəqəmsallaşmanın tətbiqi kimi təkliflər təqdim olunur. Məqalədə həmçinin qanunvericilik islahatlarının və beynəlxalq yardımların əhəmiyyəti də vurğulanır.*

***Açar sözlər:*** *Büdcə daxilolmaları, sair (digər) gəlirlər, maliyyə dayanıqlığı, dövlət əmlakı, cərimələr və sanksiyalar, ödənişli dövlət xidmətləri, beynəlxalq yardım, rəqəmsallaşma, gəlir diversifikasiyası, qanunvericilik islahatları.*

**GİRİŞ**

Büdcə daxilolmalarında sair gəlirlərin əhatə dairəsinin genişləndirilməsi müasir iqtisadi siyasətin əsas prioritetlərindən biridir. Dövlətin maliyyə dayanıqlığını təmin etmək və iqtisadi asılılığını minimuma endirmək üçün gəlir mənbələrinin şaxələndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Sair gəlirlər dedikdə, adətən, vergilərdən kənar mənbələrdən daxil olan vəsaitlər – dövlət əmlakından əldə edilən gəlirlər, cərimələr, sanksiyalar, ödənişli xidmətlər və digər qeyri-ənənəvi maliyyə mənbələri nəzərdə tutulur. Bu mənbələrin optimal istifadəsi və artırılması dövlətin büdcə imkanlarını genişləndirməklə yanaşı, iqtisadi sabitliyə və sosial rifaha töhfə verə bilər.

**MÜZAKİRƏ**

Büdcə daxilolmalarında sair gəlirlərin artırılması və əhatə dairəsinin genişləndirilməsi dövlət maliyyə siyasətinin səmərəliliyini yüksəltmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılan araşdırmalar dövlət büdcəsinin gəlir strukturu barədə daha dolğun məlumat əldə etməyə, qeyri-ənənəvi və alternativ gəlir mənbələrinin potensialını qiymətləndirməyə imkan yaradır. Eyni zamanda mövcud resursların daha səmərəli istifadəsi yollarının müəyyən edilməsi, dövlət xərclərinin planlaşdırılmasında çevikliyə və prioritetlərin düzgün müəyyənləşdirilməsinə dəstək verir. Belə yanaşma yalnız gəlirlərin artırılmasına deyil, həm də büdcə prosesində şəffaflığın və maliyyə dayanıqlığının gücləndirilməsinə xidmət edir *(Mourre & Reut, 2019)*.

Son illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin sair gəlirləri ilə bağlı (bax: Cədvəl 1) məlumatlar aşağıdakı kimidir *(State Statistical Committee of the Republic of Azerbaijan [SSC], 2024)*:

**Cədvəl 1**

*Sair gəlirlər (2020-2024)*

| İllər | Sair gəlirlər (milyon manat) | Sair gəlirlərin ÜDM-dəki payı, % | Sair gəlirlərin dövlət büdcəsindəki xüsusi çəkisi, % |
|---|---|---|---|
| 2020 | 135 303 | 18,64 | 54,8 |
| 2021 | 137 488 | 14,7 | 52,1 |
| 2022 | 98 230 | 7,33 | 32,0 |
| 2023 | 1 317 324 | 10,71 | 37,4 |
| 2024 | 150 980 | 12,0 | 40,6 |

Son illərdə Azərbaycanda sair gəlirlərin büdcəyə daxil olması müxtəlif

faktorlardan asılı olaraq dəyişmişdir. 2020-ci ildən başlayaraq sair gəlirlər ümumilikdə artan bir tendensiya göstərmiş *(SSC, 2024)*, 2020-ci ildə 135303 milyon manat olub, 2021-ci ildə isə 137 488 milyon manata çatmışdır *(SSC, 2021)*. Lakin 2022-ci ildə iqtisadi çətinliklər və bəzi büdcə resurslarının azalması nəticəsində sair gəlirlər təxminən 98 230 milyon manata düşmüşdür. Bununla belə, 2023-cü ildə 1 317 324 milyon manata qədər artan sair gəlirlər *(SSC, 2023)*, 2024-cü ildə isə 150 980 milyon manatla daha da artaraq büdcə daxilolmalarının mühüm bir hissəsini təşkil etməyə davam edir *(SSC, 2024)*.

Sair gəlirlərin ÜDM-dəki xüsusi çəkisi illər üzrə dəyişmişdir. 2020-ci ildə sair gəlirlərin ÜDM-dəki payı 18,64%-ə çataraq ən yüksək səviyyəyə yüksəlmişdir. Bu dövrdə Azərbaycan iqtisadiyyatı, xüsusən də neft qiymətlərinin yüksək olması səbəbindən sair gəlirlərdən daha çox asılı idi. 2021-ci ildə bu göstərici 14, 7%-ə düşdü, lakin yenə də mühüm əhəmiyyətə sahib idi. 2022-ci ildə sair gəlirlərin ÜDM-dəki payı kəskin şəkildə azalaraq 7,33%-ə enmişdir *(SSC, 2022)*. Bu, neft qiymətlərinin azalmağa başlaması və iqtisadi çətinliklər səbəbindən qeyri-neft sektorundan gələn sair gəlirlərin hələ də kifayət qədər güclənmədiyini göstərir. 2023-2024-cü illərdə isə sair gəlirlərin ÜDM-dəki payı müvafiq olaraq 10,71% və 12, 0%-ə yüksəlmişdir. Bu artım qeyri-neft sektorunun inkişafı, iqtisadi diversifikasiya və sair gəlir mənbələrinin şaxələndirilməsi nəticəsində baş vermişdir *(SSC, 2024)*.

Dövlət büdcəsinə daxil olan sair gəlirlərin büdcədəki xüsusi çəkisi də dəyişkənlik göstərmişdir. 2020 və 2021-ci illərdə sair gəlirlərin büdcə daxilolmalarındakı payı 54,8% və 52,1% olmaqla yüksək səviyyələrdə olmuşdur. Bu dövrün iqtisadi göstəriciləri, sair gəlirlərin büdcə daxilolmalarının əsas hissəsini təşkil etdiyini göstərir. 2022-ci ildə isə sair gəlirlərin büdcədəki xüsusi çəkisi 32,0%-ə enmişdir. Bu, iqtisadi çətinliklər və sair gəlir mənbələrinin qeyri-sabitliyi ilə əlaqədardır. Lakin 2023-cü ildən başlayaraq sair gəlirlərin büdcədəki xüsusi çəkisi yenidən artmağa başlamışdır. 2023 və 2024-cü illərdə bu göstərici müvafiq olaraq 37,4% və 40,6%-ə yüksəlmişdir. Bu artım dövlətin iqtisadi şaxələndirmə siyasətini həyata keçirməsi və sair gəlir mənbələrini genişləndirməsi nəticəsində baş vermişdir *(SSC, 2023; SSC, 2024)*.

***Genişləndirmə yolları***

Dövlət əmlakının effektiv idarə olunması dövlət büdcəsinə mühüm töhfə verə bilən strateji bir sahədir. Bu istiqamətdə əmlakın icarəyə verilməsi və özəlləşdirilməsi vasitəsilə əlavə gəlirlər əldə etmək mümkündür. Əmlakın icarəyə verilməsi zamanı onun bazar qiymətinə uyğun dəyərləndirilməsi və potensial istifadəçilər üçün şəffaf və rəqabətcil

icarə prosedurlarının tətbiqi əsas prinsiplərdən biri olmalıdır. Özəlləşdirmə prosesində isə prioritet dövlət mülklərinin effektivliyi aşağı olan sahələrdə istifadəyə verilməsini təmin etməkdir. Eyni zamanda dövlət əmlakının istifadəsində israfın qarşısını almaq üçün nəzarət mexanizmləri gücləndirilməli, müasir idarəetmə yanaşmaları tətbiq edilməlidir. Əmlakın monitorinqi və dəyərindən kənar istifadə hallarının aşkarlanması məqsədilə rəqəmsal platformalar yaradılaraq effektiv idarəetmə təmin edilə bilər. Bu yanaşma dövlət əmlakından istifadə səmərəliliyini artırmaqla yanaşı, sair gəlirlərin həcmini əhəmiyyətli dərəcədə genişləndirə bilər *(Koumou, 2020).*

*Cərimə və sanksiyalar* dövlətin maliyyə gəlirləri arasında xüsusi əhəmiyyətə malikdir, lakin bu potensialın tam istifadə olunması üçün ciddi islahatlara ehtiyac var. İlk növbədə, hüquqi və inzibati qaydaların pozulmasına görə təyin edilən cərimələrin icrası ilə bağlı prosedurlar daha səmərəli, operativ şəkildə həyata keçirilməlidir. Cərimələrin toplanması zamanı ləngimələrin qarşısını almaq üçün rəqəmsal ödəmə sistemləri tətbiq edilməli və vətəndaşlara bu prosesi asanlaşdıran xidmətlər təqdim olunmalıdır *(Maheshwari, 2019)*.

Cərimə toplama mexanizmlərinin optimallaşdırılması üçün dövlət qurumları arasında koordinasiyanın artırılması da vacibdir. Məsələn, yol hərəkəti qaydalarının pozulmasına görə təyin edilən cərimələr üçün avtomatlaşdırılmış kameralar və elektron izləmə sistemləri qurulmalı, digər inzibati cərimələr üçün isə mərkəzləşdirilmiş məlumat bazası yaradılmalıdır. Bununla yanaşı, cərimə məbləğlərinin adekvat dərəcədə müəyyən edilməsi, onların həm preventiv təsirini gücləndirir, həm də büdcəyə daxilolmaların artmasına səbəb olur. Bu tədbirlər təkcə maliyyə resurslarını artırmaqla məhdudlaşmır, eyni zamanda qanunvericilik qaydalarının daha ciddi tətbiqinə şərait yaradır və dövlətə ictimai etimadı gücləndirir *(Rəhmanov & Süleymanov, 2021)*.

*Ödənişli dövlət xidmətlərinin genişləndirilməsi* büdcə daxilolmalarında sair gəlirlərin artırılması üçün mühüm istiqamətlərdən biridir. Bu sahədə əsas diqqət yeni ödənişli xidmətlərin yaradılmasına yönəldilməlidir. Dövlətin təqdim etdiyi sosial, təhsil, səhiyyə, hüquq-mühafizə və digər sahələrdə xidmətlərdə ödənişli modellərin tətbiqi gəlir mənbələrini şaxələndirə bilər. Məsələn, xüsusi təhsil kursları, tibbi xidmətlərdə əlavə xidmət paketləri və ya dövlət tərəfindən təşkil olunan texniki yoxlamalar bu sahələrdə gəlir əldə etməyə imkan yaradır. Bundan əlavə, elektron hökumət xidmətlərinin genişləndirilməsi və bu xidmətlərdən gəlir əldə edilməsi əhəmiyyətli potensial mənbədir. Elektron ödəniş platformaları vasitəsilə vətəndaşlara təqdim olunan xidmətlərin

(məsələn, qeydiyyat sənədlərinin verilməsi, arayışların alınması və ya lisenziyaların əldə edilməsi) əlçatanlığı artırılaraq daha çox vətəndaşa xidmət göstərilir, həm də sair gəlirlərin həcmi artırılır. Bu yanaşma dövlət xidmətlərini modernləşdirmək və gəlir əldə etmə potensialını artırmaqla yanaşı, vətəndaşlara daha keyfiyyətli xidmətlər təqdim etməyə imkan verir.

*Beynəlxalq yardımların artırılması* da dövlətin büdcəsinə daxilolmaların əhatə dairəsini genişləndirmək üçün mühüm vasitələrdən biridir. Bu məqsədlə dövlət, beynəlxalq təşkilatlardan qrantlar və yardımlar cəlb etmək üçün daha aktiv siyasət yürütməlidir *(Koumou, 2020)*.

Beynəlxalq yardım layihələri adətən infrastrukturun inkişafı, təhsil və səhiyyə sahələrinin gücləndirilməsi, innovativ texnologiyaların tətbiqi və ekoloji problemlərin həlli kimi sahələri əhatə edir. Bununla yanaşı, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və strateji tərəfdaşlıqların qurulması bu yardımların cəlb edilməsini asanlaşdıra bilər. Bu, təkcə maliyyə resurslarının artırılmasına deyil, həm də ölkənin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və strateji məqsədlərinə çatmasına xidmət edir. Həmçini bu yardımların səmərəli şəkildə idarə olunması üçün şəffaflıq və hesabatlılıq prinsiplərinə riayət edilməlidir ki, beynəlxalq tərəfdaşlar arasında etibar daha da güclənsin.

*Rəqəmsallaşma və innovasiyalar* dövlət maliyyə idarəçiliyinin müasir inkişaf istiqamətlərindəndir. Bu yanaşma maliyyə sistemlərində şəffaflığı artırmaq və idarəetmədə effektivliyi təmin etmək üçün geniş imkanlar yaradır. Elektron platformaların tətbiqi, gəlirlərin toplanması prosesində operativliyi artırmaqla yanaşı, gəlir mənbələrinin izlənməsini asanlaşdırır. Məsələn, dövlət xidmətlərindən ödənişlərin onlayn həyata keçirilməsi, cərimələrin və rüsumların rəqəmsal kanallar vasitəsilə toplanması prosesin şəffaflığını təmin edir və vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarəti gücləndirir *(Maheshwari, 2019)*.

Bununla yanaşı, innovativ texnologiyalar, məsələn, blockchain və big data analitikası, maliyyə axınlarının izlənməsi və potensial gəlir mənbələrinin daha dəqiq müəyyənləşdirilməsi üçün istifadə edilə bilər. Bu texnologiyalar həmçinin vergi bazasının genişləndirilməsi və qeyri-formal iqtisadi fəaliyyətlərin aşkarlanması kimi məsələlərin həllində də mühüm rol oynaya bilər.

*Qanunvericiliyin təkmilləşdirilməsi* sair gəlirlərin daha effektiv idarə olunması üçün hüquqi bazanın təkmilləşdirilməsi üçün vacibdir. Bu məqsədlə mövcud qanunvericilikdə olan boşluqların aradan qaldırılması və sair gəlirləri əhatə edən konkret tənzimləmələrin qəbul edilməsi zəruridir. Belə qanunlar dövlət əmlakından istifadə, cərimələrin tətbiqi və toplanması,

eləcə də ödənişli xidmətlərin göstərilməsi ilə bağlı qaydaları daha dəqiq və aydın şəkildə müəyyən etməlidir. Vergidən yayınma hallarının qarşısını almaq üçün əlavə hüquqi tənzimləmələrin tətbiqi də önəmlidir. Bu, həm vergi bazasının genişləndirilməsi, həm də dövlətin gəlir əldə etmə imkanlarının artırılması baxımından əhəmiyyətlidir.

Vergi sistemində rəqəmsal izləmə mexanizmlərinin tətbiqi, yüksək riskli sektorların xüsusi monitorinqi və ciddi cəzaların təyin edilməsi kimi tədbirlər bu sahədə səmərəliliyi artırmaq üçün effektiv həllər təqdim edə bilər. Hüquqi bazanın gücləndirilməsi dövlətin maliyyə resurslarını daha yaxşı idarə etməsinə və büdcə daxilolmalarının dayanıqlığını təmin etməsinə imkan yaradır *(Maheshwari, 2019)*.

***Dövlət əmlakının daha effektiv idarə edilməsi***

Dövlət əmlakının səmərəli idarə olunması büdcə daxilolmalarının artırılması və iqtisadi inkişafın dəstəklənməsi üçün mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsi, istifadəsi və özəlləşdirilməsi proseslərinin optimallaşdırılması vacibdir *(Koumou, 2020)*.

***Dövlət əmlakının inventarizasiyası və istifadəsiz qalan obyektlərin iqtisadi dövriyyəyə cəlb edilməsi***

İlk növbədə dövlət əmlakının tam inventarizasiyası aparılmalıdır. Bu, mövcud əmlakın dəqiq uçotunun aparılmasına, istifadəsiz və ya səmərəsiz istifadə edilən obyektlərin müəyyən edilməsinə imkan yaradır. Bu obyektlərdən gəlir əldə etmək üçün onların müxtəlif məqsədlərlə (icarə, xidmət sahələri, istehsalat və s.) iqtisadi dövriyyəyə cəlb edilməsi təmin olunmalıdır. Məsələn, boş qalan dövlət binaları iş yerləri, startap mərkəzləri və ya digər kommersiya fəaliyyətləri üçün istifadəyə verilə bilər.

***Rəqəmsal texnologiyalar vasitəsilə icarə və satış proseslərinin şəffaflaşdırılması***

İcarə və satış proseslərinin rəqəmsallaşdırılması həm potensial istifadəçilərin daha geniş auditoriyasına çatmağa, həm də bu proseslərin şəffaflığını təmin etməyə kömək edir. Onlayn platformalar vasitəsilə dövlət əmlakının icarəsi və satışına dair məlumatlar ictimaiyyətə açıq təqdim olunmalı və bütün proseslər rəqəmsal izləmə sistemi vasitəsilə idarə edilməlidir. Bu yanaşma korrupsiya riskini azaltmaqla yanaşı, daha çox iştirakçının cəlb olunmasını təmin edir və daha ədalətli qiymət formalaşdırır *(Rəhmanov & Süleymanov, 2021)*.

***Özəlləşdirmə prosesinin sadələşdirilməsi və investorlar üçün cəlbediciliyinin artırılması***

Özəlləşdirmə prosesləri bürokratik maneələri aradan qaldırmaqla daha

əlçatan və sadə olmalıdır. Dövlət mülklərinin özəlləşdirilməsi ilə bağlı prosedurların sürətləndirilməsi və potensial investorlar üçün şəffaf qaydaların tətbiqi mühüm rol oynayır. Əlavə olaraq investorlara müxtəlif stimullar (məsələn, vergi güzəştləri, uzunmüddətli icarə müqavilələri və ya güzəştli kreditlər) təqdim olunaraq onların bu prosesdə iştirakı təşviq edilməlidir. Bu yanaşma dövlət mülklərinin səmərəsiz istifadəsinin qarşısını alır, eyni zamanda iqtisadi fəallığın artmasına töhfə verir *(Rəhmanov & Süleymanov, 2021)*.

Dövlət əmlakının daha effektiv idarə edilməsi yalnız büdcəyə gəlir gətirməklə kifayətlənmir, o iqtisadi resursların səmərəli istifadəsinə, iş yerlərinin yaradılmasına və ümumi iqtisadi inkişafın təmin edilməsinə xidmət edir. Dövlət xidmətlərindən daxilolmaların artırılması üçün strateji yanaşmalar tətbiq olunmalıdır.

Ödənişli dövlət xidmətlərinin genişləndirilməsi və xidmət keyfiyyətinin artırılması dövlət tərəfindən təqdim edilən xidmətlərdə ödənişli modellərin tətbiqi əlavə gəlr mənbələrinin yaranmasına səbəb ola bilər. Məsələn, xüsusi sertifikatlaşdırma xidmətləri sürətli sənəd hazırlama prosesləri, dövlət müəssisələri tərəfindən təqdim edilən təhsil və təlim proqramları kimi əlavə xidmətlərin inkişaf etdirilməsi bu istiqamətdə effektiv vasitələrdən biridir. Eyni zamanda xidmət keyfiyyətinin artırılması və müasir texnologiyaların tətbiqi vətəndaş məmnuniyyətini artıraraq bu xidmətlərdən daha geniş istifadəni təşviq edə bilər *(Maheshwari, 2019)*.

***Elektron xidmətlərin tətbiqi və onların əlçatanlığının artırılması***

Elektron xidmətlərin inkişafı dövlətin gəlir əldəetmə potensialını artırmaqla yanaşı xidmətlərin daha operativ və şəffaf şəkildə təqdim olunmasına imkan verir. Onlayn ödəniş sistemləri vasitəsilə dövlət rüsumları, cərimələr və digər ödənişlər daha rahat şəkildə toplanır. Elektron hökumət platformalarının inkişafı isə bürokratik maneələri aradan qaldıraraq dövlət xidmətlərinin vətəndaşlar üçün daha əlçatan olmasını təmin edir.

*Dövlət müəssisələrinin göstərdiyi xidmətlərin diversifikasiyası* dövlət müəssisələrinin fəaliyyət istiqamətlərinin genişləndirilməsi onların əlavə gəlir mənbələri yaratmasına şərait yaradır. Müxtəlif sektorlarda (məsələn, turizm, mədəniyyət, təhsil və idman sahələri) xidmət növlərinin artırılması bu müəssisələrin iqtisadi səmərəliliyini artırmaqla yanaşı dövlət büdcəsinə əlavə töhfə verə bilər *(Koumou, 2020)*.

*Büdcə qanunvericiliyinin sair gəlirlərin yığımı üzrə təkmilləşdirilməsi* mövcud büdcə qanunvericiliyində olan boşluqların aradan qaldırılması və sair gəlirlərin yığımı ilə bağlı hüquqi bazanın gücləndirilməsi zəruridir. Hüquqi islahatlar vasitəsilə sair gəlirlərin yığımı üçün daha şəffaf və

effektiv mexanizmlər yaradılmalıdır. Bu, mövcud gəlir mənbələrinin daha yaxşı idarə olunmasına, həm də yeni mənbələrin aşkar edilməsinə imkan verir.

*İnstitusional əməkdaşlığın gücləndirilməsi və məsuliyyət bölgüsünün dəqiqləşdirilməsi* sair gəlirlərin effektiv idarə olunması üçün dövlət qurumları arasında əməkdaşlıq gücləndirilməli və məsuliyyət bölgüsü dəqiq müəyyən edilməlidir. İnstitusional əməkdaşlığın artırılması gəlirlərin yığımı və istifadəsi prosesində səmərəliliyin yüksəldilməsinə kömək etməklə yanaşı, hər bir qurumun funksiyasının və məsuliyyət sahəsinin aydın müəyyənləşdirilməsi büdcə daxilolmalarının daha effektiv idarə olunmasına zəmin yaradır.

**NƏTİCƏ**

Sair gəlirlərin əhatə dairəsinin genişləndirilməsi dövlətin maliyyə sabitliyinin və iqtisadi dayanıqlığının gücləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Dövlət əmlakının effektiv idarə olunması, cərimə və sanksiyaların tətbiqində səmərəliliyin artırılması, ödənişli xidmətlərin şaxələndirilməsi, rəqəmsallaşmanın və innovativ texnologiyaların geniş tətbiqi bu istiqamətdə əsas strategiyalardır. Bu yanaşmalar yalnız büdcənin gəlir hissəsinin artırılması ilə məhdudlaşmayacaq, həm də dövlət idarəçiliyinin daha şəffaf və çevik olmasına, iqtisadi inkişafın davamlılığının təmin edilməsinə töhfə verəcəkdir.

Sair gəlirlərin əhatə dairəsinin genişləndirilməsi dövlət büdcəsinin gəlir mənbələrinin diversifikasiyasını təmin etməklə bərabər gələcəkdə maliyyə resurslarının dayanıqlı şəkildə idarə olunmasına imkan yaradacaqdır. Bu məqsədə nail olmaq üçün idarəetmə mexanizmlərinin gücləndirilməsi, qanunvericilik islahatlarının həyata keçirilməsi və müasir texnologiyaların tətbiqi prioritet istiqamətlərdən biri olmalıdır.

## ƏDƏBİYYAT

Koumou, G. B. (2020). Diversification and portfolio theory: a review. *Financial Markets and Portfolio Management, 34*(3), 267-312.

Mourre, G., & Reut, A. (2019). Non-tax revenue in the European Union: A source of fiscal risk?. *International tax and public finance, 26*(1), 198-223.

Maheshwari, S. N. (2019). *Financial Management: Principles & Practice.* Sultan Chand & Sons.

Rəhmanov, F. P., & Süleymanov, E. B. (2021). *Azərbaycan iqtisadiyyatı: Makroiqtisadi analiz.* MSV NƏŞR.

State Statistical Committee of the Republic of Azerbaijan. (2020). *Statistical yearbook of Azerbaijan.*

State Statistical Committee of the Republic of Azerbaijan. (2021). *Statistical yearbook of Azerbaijan.*

State Statistical Committee of the Republic of Azerbaijan. (2022). *Statistical yearbook of Azerbaijan.*

State Statistical Committee of the Republic of Azerbaijan. (2023). *Statistical yearbook of Azerbaijan.*

State Statistical Committee of the Republic of Azerbaijan. (2024). *Statistical yearbook of Azerbaijan.*

**Azer Mammad oglu Aliyev**
*Researcher at the Department of "Monetary and Fiscal Regulation Issues", Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan*
***E-mail:*** aziko67@mail.ru
*https://orcid.org/0009-0006-7432-072X*

## IDENTIFYING OF WAYS FOR BROADENING THE SCOPE OF MISCELLANEOUS REVENUES IN BUDGETARY REVENUES

***Abstract:*** *Expanding the scope of miscellaneous (other) revenues in budgetary inflows is critical for enhancing state financial stability. The article analyzes pathways to broaden these revenues and proposes various strategic approaches and measures. It examines how their increase strengthens financial resilience through revenue source diversification and resource optimization. Recommendations include effective state property management, intensified fines and sanctions, expanded fee-based services, and digitalization. The importance of legislative reforms and international assistance is also emphasized.*

***Keywords:*** *Budgetary revenues, miscellaneous (other) revenues, financial stability, state property, fines and sanctions, fee-based public services, international assistance, digitalization, revenue diversification, legislative reforms.*

**Азер Мамед оглы Алиев**
*Научный сотрудник отдела «Проблемы монетарного*

*и фискального регулирования» Института экономики*
*Министерства науки и образования*
*Азербайджанской Республики*
***Электронная почта:*** aziko67@mail.ru
*https://orcid.org/0009-0006-7432-072X*

## ВЫЯВЛЕНИЕ ПУТЕЙ РАСШИРЕНИЯ ОХВАТА ПРОЧИХ ДОХОДОВ В БЮДЖЕТНЫХ ПОСТУПЛЕНИЯХ

***Резюме:*** *Расширение охвата прочих (иных) доходов в составе бюджетных поступлений имеет решающее значение для повышения финансовой устойчивости государства. В статье анализируются пути расширения этих доходов и предлагаются различные стратегические подходы и меры. Исследуется, как их увеличение укрепляет финансовую устойчивость за счёт диверсификации источников доходов и оптимизации ресурсов. Рекомендации включают эффективное управление государственным имуществом, усиление штрафов и санкций, расширение платных услуг и внедрение цифровизации. Также подчёркивается важность законодательных реформ и международной помощи.*

***Ключевые слова:*** *Бюджетные поступления, прочие (иные) доходы, финансовая устойчивость, государственное имущество, штрафы и санкции, платные государственные услуги, международная помощь, цифровизация, диверсификация доходов, законодательные реформы.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 13.02.2025; çapa qəbul edilib – 29.03.2025.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

===============================================================

**UOT/UDC/УДК** ***336.76(479.24)***

DOI 10.5281/zenodo.18343063

**Mətanət Yunis qızı Cəfərova**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "Monetar və fiskal tənzimləmə problemləri" şöbəsinin elmi işçisi*
***E-mail:*** jafarova.13@gmail.com
*https://orcid.org/0009-0004-4168-3968*

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ QEYRİ-NEFT SEKTORUNA TƏSİRİ

***Xülasə:*** *Məqalədə qiymətli kağızlar bazarının Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna təsiri araşdırılır. Burada fond bazarının kapitalın formalaşması, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, şirkətlər üçün əlavə maliyyə mənbəyi yaratması və risklərin idarə olunmasına təsiri təhlil edilir. Həmçinin korporativ idarəetmə, şəffaflıq və investor məlumat axınının bazarın səmərəliliyində rolu şərh olunur.*

***Açar sözlər:*** *Diversifikasiya, likvidlik, fond bazarı, korporativ idarə etmə.*

## GİRİŞ

Fond bazarının investisiyanın inkişafına təsirini bir neçə yolla görmək olar:

1. Kapitalın formalaşması: fond bazarı şirkətlərə səhmlərini ictimaiyyətə çıxararaq kapital toplamaq üçün bir platforma təqdim edir. Bu kapital tədqiqat və inkişaf, genişləndirmə və ya borcun ödənilməsi üçün istifadə edilə bilər. Kapitalın mövcudluğu investisiyaların inkişafı və biznesin böyüməsi üçün əsas amil ola bilər.

2. Diversifikasiya: fond bazarı böyük transmilli korporasiyalardan tutmuş kiçik startaplara qədər geniş investisiya imkanları təklif edir. İnvestorlar riskə məruz qalmalarını azaldaraq bir sıra səhmlərə investisiya qoymaqla portfellərini diversifikasiya edə bilərlər. Bu, hər hansı itkilərin təsirini minimuma endirməyə və investisiyanın ümumi gəlirini artırmağa kömək edə bilər.

3. Likvidlik: fond bazarı investorlara digər investisiya formalarında mövcud olmayan likvidlik səviyyəsini təmin edir. İnvestorlar səhmləri tez və asanlıqla ala və sata bilərlər ki, bu da yaranan investisiya imkanlarından yararlanmağı asanlaşdırır. Bu artan likvidlik həm də bazar dəyişkənliyinin təsirini azaltmağa və investorlara daha çox sabitlik təmin etməyə kömək edə bilər.

4. İnformasiya əldə etmək: fond bazarı investorlara maliyyə hesabatları, analitik hesabatları və xəbər məqalələri daxil olmaqla şirkətlər haqqında çoxlu məlumat əldə etmək imkanı verir. Bu məlumat investorlara məlumatlı investisiya qərarları qəbul etməyə kömək edə bilər, investisiya itkiləri riskini azalda bilər.

5. Bazar effektivliyi: fond bazarı tələb və təklif prinsipləri əsasında fəaliyyət göstərir, qiymətlər alıcı və satıcıların hərəkətləri ilə müəyyən edilir. Bu bazar səmərəliliyi səhmlərin qiymətlərinin əsas dəyərini əks etdirməsini təmin etməyə kömək edirə və investorların məlumatlı investisiya qərarları qəbul etmələrini asanlaşdırır *(Durham, 2002).*

Azərbaycanda fond bazarı son illər inkişaf və böyümə mərhələsindədir. Azərbaycanda Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bazarı tənzimləmək və onun inkişafına kömək etmək məqsədilə 1991-ci ildə yaradılmışdır. Azərbaycanda əsas fond birjası 2000-ci ildə yaradılmış Bakı Fond Birjasıdır (BFB).

BFB-də enerji, maliyyə, telekommunikasiya və digər sahələr də daxil olmaqla müxtəlif sənaye sahələrini təmsil edən bir sıra şirkətlər fəaliyyət göstərir. BFB-də siyahıya alınmış şirkətlərin sayı son illərdə nəzərə çarpacaq dərəcədə artıb və bazar getdikcə aktivləşib, səhmlərin sayı artıb.

Azərbaycanda fond bazarının inkişafına kömək etmək məqsədilə hökumət bir sıra təşəbbüslər həyata keçirib. Buraya BFB-də səhmlərini çıxaran şirkətlərə vergi güzəştlərinin verilməsi, tənzimləmə mühitinin təkmilləşdirilməsi, şəffaflığın və hesabatlılığın artırılması daxildir *(Vəliyev et al., 2001).*

BFB-dən başqa Azərbaycanda bir sıra digər fond birjaları, o cümlədən Bakı Banklararası Valyuta Birjası (BBVB), Bakı Neft Birjası (BNB) və Bakı Əmtəə Birjası (BƏB) fəaliyyət göstərir. Bu birjalar investisiya və

ticarət üçün əlavə imkanlar yaradır və Azərbaycanda fond bazarının ümumi artımını dəstəkləməyə kömək edir.

**MÜZAKİRƏ**

Bu inkişaflara baxmayaraq Azərbaycanda fond bazarının qarşısında duran bəzi problemlər hələ də mövcuddur. Buraya investorların inamının olmaması, likvidliyin olmaması və geniş ictimaiyyət arasında bazar haqqında məlumatın olmaması daxildir.

Azərbaycanda fond bazarı son illər ciddi irəliləyiş əldə edib, lakin bundan sonra da inkişaf üçün imkanlar var. Hökumət və bazar iştirakçıları bazarın üzləşdiyi problemləri həll etmək və onun davamlı böyüməsini və inkişafını təşviq etmək üçün çalışırlar. Tənzimləyici mühitin təkmilləşdirilməsi və şəffaflığın artırılması üzrə davamlı səylərlə Azərbaycanda fond bazarı gələcək artım və inkişaf üçün əlverişli mövqedədir.

Fond bazarı ölkənin iqtisadi artımında mühüm rol oynayır. Azərbaycanda fond bazarı son illər əhəmiyyətli inkişaf və yüksəliş yolu keçərək iqtisadi artımın və inkişafın mühüm təsiredici qüvvəsinə çevrilib. Bu bazar kapitalın formalaşması, diversifikasiya kimi məsələlərə təsir etməklə yanaşı aşağıdakı istiqamətlərin də inkişafına təsir edir:

1. *İnvestisiyaların artması.* Fond bazarının inkişafı Azərbaycana daha çox sərmayə qoyulmasını təşviq etdi. Bu, şirkətlərin kapitala çıxışını və investorların yeni investisiya imkanlarına çıxışını təmin etməklə iqtisadi artımı dəstəkləməyə kömək edir.

2. *Təkmilləşdirilmiş korporativ idarəetmə.* Fond bazarı şəffaflığı və hesabatlılığı təşviq edən ciddi qaydalar altında fəaliyyət göstərir. Fond bazarında siyahıya düşən şirkətlərdən maliyyə göstəriciləri, əməliyyatları və gələcək üçün planları haqqında məlumatları açıqlaması tələb olunur. Bu təkmilləşdirilmiş korporativ idarəetmə Azərbaycana daha çox sərmayənin cəlb edilməsinə kömək edir və daha çox iqtisadi artım və inkişafı təşviq edir.

3. *Ticarətin artması.* Azərbaycanda fond bazarının böyüməsi həm ölkə daxilində, həm də digər ölkələrlə ticarətin artmasına kömək etdi. Bu artan ticarət iqtisadi artımın artmasına və yeni iş imkanları yaratmağa kömək edir.

Düzgün siyasət və təşəbbüslərlə Azərbaycanda fond bazarı gələcək illərdə iqtisadi artımın və inkişafın idarə edilməsində daha böyük rol oynamaq potensialına malikdir *(Tağızadə, 2016).*

Azərbaycanda hökumət iqtisadiyyatı şaxələndirməyə və neft-qaz sektorundan asılılığı azaltmağa çalışdığı bir vaxtda bu məqsədə çatmaq üçün

əsas alət kimi fond bazarı müəyyən edilib. Potensialını maksimum dərəcədə artırmaq üçün bütün dünyada köklü fond bazarlarından ən yaxşı təcrübələri tətbiq etmək vacibdir. Azərbaycanda tətbiq oluna biləcək ən yaxşı təcrübələr bunlardır:

❖ *Tənzimləyici çərçivə.* Sağlam və inkişaf edən birja üçün yaxşı işlənmiş və möhkəm tənzimləyici baza vacibdir. Azərbaycan hökuməti fond bazarını idarə etmək və investorların maraqlarını qorumaq üçün dəqiq qaydalar və qaydaların müəyyən edilməsi üzərində çalışmalıdır. Buraya insayder ticarəti, bazar manipulyasiyası və siyahıya alınmış şirkətlər üçün açıqlama tələbləri üzrə qaydalar daxil ola bilər.

❖ *Bazarın inkişafı.* Azərbaycanda fond bazarı qeyri-neft sektorunun ehtiyaclarına səmərəli şəkildə xidmət edə bilməsi üçün inkişaf etdirilməlidir. Bura bazar infrastrukturunun təkmilləşdirilməsi, siyahıya alınmış şirkətlərin sayının artırılması və daha çox bazar likvidliyinin təşviqi daxildir.

❖ *İnvestor maarifləndirilməsi.* Məlumatlı və savadlı investor bazası uğurlu birja bazarının açarıdır. Hökumət və bazar iştirakçıları investorların maarifləndirilməsini və məlumatlandırılmasını təşviq etmək, daha çox insanı bazara sərmayə qoymağa və onun təqdim etdiyi imkanlardan istifadə etməyə cəlb etmək üçün birlikdə çalışmalıdırlar.

❖ *Şəffaflıq və hesabatlılıq.* Fond bazarı açıq və şəffaf şəkildə fəaliyyət göstərməli, listinqdə olan şirkətlər öz maliyyə göstəriciləri və əməliyyatları haqqında dəqiq və vaxtında məlumatı açıqlamalıdırlar. Bu təkmilləşdirilmiş korporativ idarəetmə daha çox investisiya cəlb etməyə və qeyri-neft sektorunda daha çox artıma və inkişafa kömək edəcəkdir.

❖ *Diversifikasiya.* Riski azaltmaq və sabitliyi təmin etmək üçün Azərbaycanda fond bazar sərmayəçilər üçün geniş investisiya imkanları ilə şaxələndirilməlidir. Bura iri transmilli korporasiyalar, kiçik startaplar və qeyri-neft sektorunda inkişaf etməkdə olan şirkətlər daxildir *(Naik, 2015).*

❖ *Texnologiya.* Səmərəliliyi artırmaq, xərcləri azaltmaq və investorlar üçün əlçatanlığı artırmaq üçün texnologiyadan istifadə fond bazarında tətbiq edilməlidir. Buraya elektron ticarət platformalarından istifadə, bazar məlumatlarına onlayn giriş, mobil və rəqəmsal həllərin inteqrasiyası daxil ola bilər.

❖ *Beynəlxalq inteqrasiya.* Azərbaycan öz fond bazarını beynəlxalq bazarlarla inteqrasiya etməyi, daha geniş investisiya imkanlarına çıxışı təmin etməyi və daha böyük iqtisadi artımı təşviq etməyi hədəfləməlidir. Bura regional fond birjaları ilə əlaqələrin qurulması və beynəlxalq təşəbbüs və sazişlərdə iştirak daxil ola bilər.

Fond bazarının inkişafı üçün inamın formalaşması vacibdir ki, bunun da əsas şərtlərindən biri şəffaflıq və hesabatlılıq mexanizmlərinin qurulmasıdır. Şəffaflıq hesabatlılığı təmin edir, investorların dəqiq məlumat əsasında əsaslandırılmış qərarlar qəbul etməsinə şərait yaradır və nəticədə bazara inamı gücləndirərək daha çox insanı investisiyaya cəlb edir, iqtisadi artım və inkişafı dəstəkləyir. Şəffaflıq həm də şirkətlərin fəaliyyəti və bazarın özü haqqında ictimaiyyətə dəqiq, tam və vaxtında məlumat verilməsini nəzərdə tutur. Buraya maliyyə göstəriciləri, bazar meylləri və investorların əsaslandırılmış qərarlar qəbul etmələri üçün lazım olan digər müvafiq məlumatlar daxildir.

Şəffaf fond bazarında şirkətlərdən maliyyə hesabatları və digər müvafiq məlumatlar daxil olmaqla əməliyyatları və maliyyə göstəriciləri haqqında dəqiq və tam məlumatı açıqlaması tələb olunur *(Əbdürəhmanova, 2015).*

Hesabatlılıq - şirkətlərin və bazar iştirakçılarının investorların maraqlarına uyğun hərəkət etmək və ictimaiyyətin gözləntilərini ödəmək məsuliyyətinə aiddir. Bura hökumətin müəyyən etdiyi qaydalara riayət etmək, ictimaiyyətə düzgün və dolğun məlumat vermək, investorların maraqlarını qorumaq üçün müvafiq tədbirlərin görülməsi daxildir. Şirkətlər və bazar iştirakçıları da öz hərəkətlərinə, o cümlədən hər hansı bir qaydaların pozulmasına görə nəticələrlə üzləşməyə cavabdeh olmağa hazır olmalıdırlar.

Hökumət fond bazarında şəffaflıq və hesabatlılığın təşviqində mühüm rol oynayır. Bu rol qaydaların müəyyənləşdirilməsi və tətbiqi, bazar iştirakçılarının fəaliyyətinə nəzarət, həmçinin müvafiq resurs və dəstəyin təmin edilməsini əhatə edir. Bundan əlavə hökumət bazar və şirkət məlumatlarına ictimai çıxış imkanlarını genişləndirərək cəmiyyətin bazarda daha fəal iştirakını təşviq edə bilər *(Naik, 2015).*

Şəffaflıq və hesabatlılıq bütün şirkətlərin davamlılığının bünövrəsini təşkil edir. Bu isə korporativ idarəetmənin tərkib hissəsidir. Korporativ idarəetmə mexanizmi fond bazarının düzgün qurulub inkişafına təsir edən amillərdəndir. Korporativ idarəetmə şirkətlərin uzunmüddətli uğurlarına və bazarın ümumi sağlamlığına təsir edən birjanın kritik aspektidir. Bu, şirkətin idarə olunduğu qaydalar, təcrübələr və proseslər sisteminə aiddir. Yaxşı korporativ idarəetmə təcrübələri fond bazarının düzgün işləməsi üçün vacibdir, çünki onlar şəffaflığı, hesabatlılığı və ədaləti təşviq etməyə kömək edir və bu da öz növbəsində bazarın sabitliyinə və böyüməsinə kömək edir.

Korporativ idarəetmənin mərkəzində şirkətin strateji istiqamətini təyin etmək və onun idarə edilməsinə nəzarət etmək üçün cavabdeh olan

direktorlar şurası durur. Şura müstəqil, müvafiq bacarıq və təcrübəyə malik olmalı, maraqların toqquşmasından azad olmalıdır. Bu müstəqillik şuraya hər hansı bir qrup və ya fərdin təsirindən daha çox şirkətin və onun səhmdarlarının maraqlarına cavab verən qərarlar qəbul etməyə imkan verir. Korporativ idarəetmənin digər mühüm aspekti şirkətlərin mülkiyyət strukturudur. Yaxşı fəaliyyət göstərən birjada, şirkətdə çoxlu sayda səhmdar paya malik olmaqla mülkiyyət geniş şəkildə səpələnmiş olmalıdır. Bu, hesabatlılığı təşviq etməyə kömək edir, çünki şirkətlər səhmdarların çoxluğu olduqda onların maraqlarına uyğun hərəkət etmək ehtimalı daha yüksək olur *(Nuriyev, 2013).*

Şəffaflıq korporativ idarəetmənin digər mühüm aspektidir və şirkətlərdən maliyyə göstəriciləri və bazar tendensiyaları da daxil olmaqla ictimaiyyətə dəqiq və dolğun məlumat təqdim etmələri tələb olunur. Bu məlumat investorların əsaslandırılmış qərarlar qəbul etmələri üçün vacibdir və bazarda inamı artırmağa kömək edir. Şirkətlərhər hansı maraq toqquşmalarını və yüksək vəzifəli şəxslərin kompensasiyalarını açıqlamalıdırlar ki, bu da səlahiyyətdən sui-istifadənin və ya öz-özünə rəftarın qarşısını almağa kömək edir.

Korporativ idarəetmənin digər əsas aspekti maraqlı tərəflərin roludur ki, buraya səhmdarlar, işçilər və müştərilər də daxildir. Maraqlı tərəflər şirkətin uğurunda maraqlıdır və qərarların qəbulu prosesində onlara söz verilməlidir. Buna səhmdarların yığıncaqları, işçilərin şurada təmsil olunması və müştərilərin rəyi prosesləri kimi müxtəlif mexanizmlər vasitəsilə nail olmaq olar. Korporativ idarəetmə fond bazarının sabitliyi və inkişafı üçün əsas komponentdir. Səmərəli idarəetmə sistemi şəffaflıq, hesabatlılıq və ədalətlilik prinsiplərini gücləndirərək şirkətlərin səhmdarların maraqlarına uyğun şəkildə idarə olunmasını və nəzarət edilməsini təmin edir. Fond bazarı və onun iştirakçıları yaxşı korporativ idarəetmə təcrübələrinin təşviqində ümumi məsuliyyət daşıyır və bu, həm bazarın, həm də onun dəstəklədiyi şirkətlərin uzunmüddətli uğuruna töhfə verir (*İsgəndərov, 2018).*

## NƏTİCƏ

Azərbaycanda fond bazarı qeyri-neft sektorunun böyüməsində və inkişafında mühüm rol oynamaq potensialına malikdir. Hökumət və bazar iştirakçıları dünya üzrə köklü fond bazarlarının ən yaxşı təcrübələrini tətbiq etməklə fond bazarının inkişaf etməyə davam etməsini və gələcək illərdə daha böyük iqtisadi artım və inkişaf əldə edə bilərlər. Bunun üçün aşağıdakı addımlar atılmalıdır:

1. *Maliyyə savadlılığını artırmaq.* Maliyyə savadlılığı fond bazarının inkişafı üçün vacibdir, çünki fərdlərə məlumatlı investisiya qərarları qəbul etməyə imkan verir. Hökumət və maliyyə institutları təhsil proqramları və ictimai maarifləndirmə kampaniyaları vasitəsilə maliyyə savadlılığını artırmaq üçün birlikdə işləyə bilərlər.

2. *Şəffaflıq və hesabatlılığı təşviq etmək.* Şəffaflıq və hesabatlılıq fond bazarının inkişafı üçün çox vacibdir, çünki onlar bazarda inamı və etimadı artırır. Hökumət və bazar tənzimləyiciləri şirkətlərin ictimaiyyətə dəqiq və dolğun məlumat verməsini və öz hərəkətlərinə görə cavabdeh olmalarını təmin etmək üçün tədbirlər görməlidir.

3. *Müxtəlifliyi təşviq etmək.* Müxtəlif şirkətlər və sənayelər fond bazarının inkişafı üçün vacibdir, investorlar üçün daha geniş investisiya imkanları təqdim edir. Hökumət və bazar tənzimləyiciləri kiçik və orta müəssisələrə (KOB) və sahibkarlara dəstək verərək bazarda müxtəlifliyi təşviq edə bilərlər.

4. *Uzunmüddətli investisiyaları təşviq etmək.* Uzunmüddətli investisiyalar fond bazarının böyüməsi üçün əhəmiyyətlidir, şirkətlərin böyüməsi və inkişafı üçün lazım olan kapitalı təmin edir. Hökumət və bazar tənzimləyiciləri uzunmüddətli investorlar üçün vergi və digər güzəştlər kimi əlverişli investisiya mühiti yaradaraq bu investisiyaları təşviq edə bilərlər

5. *Güclü tənzimləyici mühitin yaradılması.* Güclü və effektiv tənzimləmə mühiti fond bazarının inkişafı üçün vacibdir, çünki o, investorların müdafiəsini təmin edir və bazarda sabitliyi qoruyur. Hökumət və bazar tənzimləyiciləri şirkətlərin qaydalara əməl etməsini və hər hansı pozuntuya görə məsuliyyət daşımalarını təmin etmək üçün tədbirlər görməlidir.

6. *İnstitusional investorların iştirakını təşviq etmək.* Pensiya fondları və sığorta şirkətləri kimi institusional investorlar sabitlik və likvidliyi təmin etdikləri üçün fond bazarında mühüm rol oynayırlar.

7. *Bazar infrastrukturunu inkişaf etdirmək.* Hökumət və bazar tənzimləyiciləri bazarın böyüməsini dəstəkləmək üçün bu infrastrukturun inkişafına sərmayə qoymalıdırlar. Yaxşı inkişaf etmış ticarət sistemləri, kliring və hesablaşma sistemləri fond bazarının inkişafı üçün vacibdir.

Yekun olaraq qeyd edək ki, Azərbaycanda fond bazarının inkişafı ölkənin iqtisadi inkişafı üçün çox vacibdir. Maliyyə savadlılığını, şəffaflığı və hesabatlılığı, müxtəlifliyi, uzunmüddətli investisiyaları, güclü tənzimləyici mühiti, investorların institusional iştirakını və bazar infrastrukturunun inkişafını təşviq etməklə, ölkədə şirkətlərin böyüməsini dəstəkləyəcək canlı və dinamik bir fond bazarı yaradıla bilər.

## ƏDƏBİYYAT

Durham, J. B. (2002). The effects of stock market development on growth and private investment in lower-income countries. *Emerging Markets Review, 3*(3), 211–232.

Əbdürəhmanova, A. A. (2015). *Azərbaycanda maliyyə bazarının formalaşması problemləri.* Azərbaycan Dövlət İqtisad Universiteti. http://unec.edu.az/application/uploads/2015/05/abdurahmanova_aynur.pdf

İsgəndərov, Ü. İ. (2018). *Qiymətli kağızlar bazarı və investisiya sahəsində onların rolu.* Azərbaycan Dövlət İqtisad Universiteti. http://unec.edu.az/application/uploads/2018/12/lvi-sg-nd-rov-M-vzu-Qiym-tli-ka-zlar-bazar-v-investisiya-sah-sind-onlar-n-rolu1.pdf

Naik, P. K., & Padhi, P. (2015). On the linkage between stock market development and economic growth in emerging market economies: Dynamic panel evidence. *Review of Accounting and Finance, 14*(4), 363–381.

Nuriyev, Z. Ə. (2013). *Pay investisiya fondlarının qiymətli kağızlar bazarında rolu.* Azərbaycan Dövlət İqtisad Universiteti.

Tağızadə, S. S. (2016). *Milli iqtisadiyyatın maliyyələşdirilməsində qiymətli kağızlar bazarının rolu.* Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. https://www.preslib.az/az/autoreferat/izN7hYgsKE

Vəliyev, T. S., Babayev, Ə. P., & Meybullayev, M. X. (2001). *İqtisadi nəzəriyyə*. Çaşıoğlu.

**Metanet Yunis gizi Jafarova**
*Researcher at the Department of "Monetary and Fiscal Regulation Issues", Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan*
***E-mail:*** jafarova.13@gmail.com
*https://orcid.org/0009-0004-4168-3968*

## THE IMPACT OF THE SECURITIES MARKET ON THE NON-OIL SECTOR

***Abstract:*** *The article investigates the impact of the securities market on the non-oil sector of the Azerbaijani economy. It analyzes the influence of the stock market on capital formation, improvement of the investment*

*environment, economic diversification, creation of additional financing sources for companies, and risk management. Additionally, the role of corporate governance, transparency, and investor information flow in enhancing market efficiency is discussed.*

***Keywords:*** *Diversification, liquidity, stock market, corporate governance.*

**Метанет Юнис кызы Джафарова**
*Научный сотрудник отдела «Проблемы монетарного и фискального регулирования» Института экономики Министерства науки и образования Азербайджанской Республики*
***Электронная почта:*** jafarova.13@gmail.com
*https://orcid.org/0009-0004-4168-3968*

## ВЛИЯНИЕ РЫНКА ЦЕННЫХ БУМАГ НА НЕНЕФТЯНОЙ СЕКТОР

***Резюме:*** *В статье исследуется влияние рынка ценных бумаг на не нефтяной сектор экономики Азербайджана. Анализируется воздействие фондового рынка на формирование капитала, улучшение инвестиционной среды, диверсификацию экономики, создание дополнительных источников финансирования для компаний и управление рисками. Также обсуждается роль корпоративного управления, прозрачности и потока информации для инвесторов в повышении эффективности рынка.*

***Ключевые слова:*** *Диверсификация, ликвидность, фондовый рынок, корпоративное управление.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 19.01.2025; çapa qəbul edilib – 01.04.2025.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***
=====================================================
**UOT/UDC/УДК *624.012.45*** DOI 10.5281/zenodo.18343168

**Aygün Amanulla qızı Mansurova**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin*
*nəzdində İnşaat kolleci, müəllim*
***E-mail:*** mansurovali2000@gmail.com
*https://orcid.org/0009-0001-3829-3326*

# MONOLİT DƏMİR-BETON KONSTRUKSİYALAR

***Xülasə:*** *Məqalədə Azərbaycan Respublikasında tikinti sahəsinin son dövrlərdəki inkişaf tendensiyaları və bu sahədə tətbiq olunan yeni yanaşmalar araşdırılmışdır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələri diqqət mərkəzinə gətirilmiş, bu prosesdə müasir inşaat materiallarının, o cümlədən monolit dəmir-beton konstruksiyaların rolu şərh olunmuşdur. Dəmir-beton konstruksiyaların tarixi inkişaf mərhələləri, yaranma prinsipləri və metodologiyası geniş şəkildə təhlil olunmuş, onların müasir tikintidə tətbiqi imkanları qeyd edilmişdir.*

*Monolit dəmir-beton konstruksiyaların mühəndislik baxımından üstünlükləri, dayanıqlığı və seysmik davamlılıq nöqteyi-nəzərdən əhəmiyyəti əsaslandırılmışdır. Həmçinin bu konstruksiyaların layihələndirilməsi və yerində tətbiqi ilə bağlı mövcud problemlər müəyyən edilmiş və onların həlli istiqamətində təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *Tikinti sahəsi, monolit, dəmir-beton konstruksiyalar, ağıllı kənd.*

## GİRİŞ

Son illər Azərbaycan Respublikasında tikinti sektorunda əhəmiyyətli

nailiyyətlər əldə olunmuşdur.

Bu inkişaf paytaxt Bakıda, bölgələrdə və işğaldan azad olunmuş ərazilərdə özünü göstərir, xüsusilə azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işlərində. Burada yeni yaşayış massivləri, sosial obyektlər, sənaye müəssisələri və yol-nəqliyyat infrastrukturu inşa olunur.

Torpaqlarımızda aparılan quruculuq prosesi yalnız fiziki məkanların bərpası ilə məhdudlaşmır, həm də regionların sosial-iqtisadi inkişafına, əhalinin geri qayıdışına və ümumi rifahın yüksəldilməsinə xidmət edir. Bu baxımdan dövlətimizin qarşısında duran əsas vəzifələrdən biri azad olunmuş ərazilərdə müasir tikinti-quraşdırma işlərinin yüksək keyfiyyətlə həyata keçirilməsi və bu işlərin davamlı inkişaf prinsiplərinə uyğun təşkil olunmasıdır.

Məhz bu vəzifələrin icrasında müasir tikinti texnologiyalarının, xüsusilə də monolit dəmir-beton konstruksiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Çünki bu konstruksiyalar möhkəmliyi, uzunömürlülüyü və seysmik davamlılığı ilə seçilir və gələcəkdə şəhərsalma layihələrinin əsasını təşkil edə bilər.

## MÜZAKİRƏ

Bir sıra istiqamətlərdə – regionun enerji ilə təminatı, yol infrastrukturunun qurulması, dəmir yolu xətlərinin çəkilməsi və hava limanlarının tikintisi sahəsində ciddi addımlar atılmışdır. Ən önəmli məqam isə işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin ən müasir standartlara uyğun şəkildə həyata keçirilməsidir. Yaşayış məntəqələrinin bərpasında “Ağıllı kənd” və “Ağıllı şəhər” konsepsiyalarının *(Visvizi & Lytras, 2018)* tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Qarabağ bölgəsində həyata keçirilən layihələr gələcəkdə bütün ölkə üçün pilot xarakterli baza rolunu oynaya bilər. Ümumilikdə bu tipli layihələr regionun sosial-iqtisadi inkişafında mühüm rol oynayaraq əhalinin rifahının yüksəldilməsinə xidmət edəcəkdir.

Tarix boyu insanlar şəhərləri, kəndləri və qəsəbələri öz tələblərinə və zövqlərinə uyğun olaraq dəyişməyə çalışmışlar. Bu gün isə ölkəmizdə insanlar eyni tipli, oxşar görünüşlü binalardan daha çox, estetik baxımdan gözəl, fərqli üslubda və rahat yaşayış məkanları görmək istəyirlər. Müasir dövrdə insanların tələbatı durmadan artır, zövqləri və seçimləri sürətlə dəyişir. Belə şəraitdə daha gözəl, zövqlü, uzunömürlü və komfortlu binaların inşası üçün keyfiyyətli inşaat materiallarından və ən son texnologiyalardan istifadə etmək zəruridir.

### *Dəmir-beton konstruksiyaların yaranma tarixi*

Betonun tarixi çox qədim dövrlərə gedib çıxır. Tarixi mənbələrə görə betonun ilkin formalarından eramızdan əvvəl III əsrdə istifadə olunmuşdur. O dövrdə beton əsasən Misir labirintlərinin tikintisində, iri suvarma qurğularında, günbəzlərin, məbədlərin, körpülərin və digər monumental tikililərin inşasında tətbiq edilmişdir. Antik dövrün mühəndisləri betonda yapışdırıcı maddə kimi əhəng gili, əhəng-qum qarışıqlarını, həmçinin gips və vulkanik küldən istifadə edirdilər. Bu qarışıqlardan hazırlanan inşaat materialı "Roma betonu" adı ilə məşhurlaşmış və geniş yayılmışdır *(Neville, 2011).*

Roma imperiyası dövründə betonun tətbiqi öz zirvəsinə çatmışdır. Bu materialdan məbədlərin, körpülərin, akvedukların, amfiteatrların, abidələrin və digər mühüm tikililərin inşasında geniş istifadə olunmuşdur. Roma mühəndislərinin yaratdığı bəzi tikililər bu günə qədər möhkəmliyini qoruyub saxlamışdır. Məsələn, Panteon məbədi, Flavi amfiteatrı (Kolizey), müxtəlif tağlar, günbəzlər və akveduklar qədim Roma betonunun davamlılığını və keyfiyyətini sübut edir *(Lancaster, 2005).*

XVIII əsrdən etibarən betonun tətbiqi daha da genişləndi. Bu dövr artıq hidravlik əhəngin, romansementin və nəhayət portlandsementin kəşfi ilə xarakterizə olunur. Portlandsementin yaranması beton istehsalında böyük inqilab yaratdı və müasir tikintinin əsasını qoydu *(Hewlett, 1998).*

XIX əsrin sonlarından başlayaraq isə tikinti materialları sahəsində mühüm yenilik – dəmir-beton konstruksiyaların meydana gəlməsi baş verdi. Betonun sıxılmaya qarşı yüksək davamlılığı ilə poladın dartılmaya qarşı möhkəmliyi birləşdirilərək tamamilə yeni konstruktiv material – dəmir-beton əldə olundu. Bu inşaat materialı uzunömürlülüyü, möhkəmliyi, yanğına və korroziyaya qarşı davamlılığı ilə seçildiyindən müasir memarlıq və inşaatda geniş tətbiq olunmağa başladı *(Mamlouk & Zaniewski, 2016).*

***Monolit dəmir-beton konstruksiyaların inkişafı***

Tikinti sənayesinin inkişafı ilə paralel olaraq müxtəlif konstruktiv həllər formalaşmışdır. Onların içərisində dəmir-beton konstruksiyalar xüsusi yer tutur və əsasən iki əsas növə bölünür: yığma dəmir-beton və monolit dəmir-beton konstruksiyaları *(Neville, 2011).* Müasir inşaat təcrübəsində hər iki növün geniş tətbiq sahəsi olsa da son illərdə monolit dəmir-beton konstruksiyalar daha üstün hesab edilir.

Monolit dəmir-beton konstruksiyaları birbaşa tikinti meydançasında hazırlanır. İlk olaraq qəliblər (formalar) quraşdırılır, onların içinə armatur yerləşdirilir və beton qarışığı tökülür. Betonun bərkiməsindən sonra qəliblər sökülür və nəticədə bütöv, təkparça konstruksiya əldə olunur.

Monolit konstruksiyaların bir çox üstünlükləri mövcuddur. Onların

əsas müsbət cəhətləri aşağıdakılardır:

❖ Yüksək dayanıqlılıq və sərtlik;

❖ İstənilən forma və ölçüdə hazırlanmaq imkanının mövcudluğu;

❖ Birləşmə (qovşaq) yerlərinin olmaması nəticəsində yaxşı səs və istilik izolyasiyası;

❖ Zəlzələyə qarşı yüksək davamlılıq;

❖ Memarlıq baxımından forma sərbəstliyi.

Məhz bu üstünlüklərinə görə monolit dəmir-beton konstruksiyalar çoxşaxəli tətbiq sahəsinə malikdir. Hazırda onlardan hündürmərtəbəli yaşayış binalarında, sənaye müəssisələrində, hidrotexniki qurğularda, körpülərdə, tunellərdə, kənd təsərrüfatı obyektlərində, həmçinin yerüstü və yeraltı infrastruktur tikililərində geniş istifadə olunur.

Qeyd etmək lazımdır ki, monolit dəmir-beton konstruksiyalarının bir sıra çatışmazlıqları da vardır. Tikinti müddətinin uzun olması, qəlib və beton tökmə prosesinin texnoloji çətinliyi, işlərin hava şəraitindən asılılığı və tikinti xərclərinin yüksəkliyi bu çatışmazlıqlara misal ola bilər. Eyni zamanda yığma dəmir-beton konstruksiyalara nisbətən monolit konstruksiyaların ətraf mühitə təsiri daha çox ola bilər *(Neville, 2011).*

Demək olar ki, insanların monolit evlərə olan marağı ildən-ilə artır. Bu, əsasən monolit konstruksiyaların zəlzələyə qarşı daha davamlı olması və müasir dizayn tələblərinə daha yaxşı cavab verməsi ilə bağlıdır. Belə binalar uzunömürlü, möhkəm və rahat hesab olunur *(Mamlouk & Zaniewski, 2016).*

Monolit dəmir-beton konstruksiyaların inkişaf istiqamətləri müasir dövrdə olduqca genişdir. Bu material mülki, sənaye, nəqliyyat, kimya, neft və energetika sahələrində geniş tətbiq olunur. Eyni zamanda istinad divarlarının, rezervuarların, tüstü borularının, silosların, tağ və tağbənd örtüklərinin tikintisində də əvəzsiz inşaat materialı kimi istifadə edilir *(Mindess et al., 2003; ACI Committee 318, 2019).*

## NƏTİCƏ

XX əsrin ortalarından başlayaraq əhalinin mənzilə olan tələbatının sürətlə artması fonunda, əsasən kiçik və minimum yaşayış sahəsinə malik binaların tikintisinə başlanmışdır. Bu dövrdə salınan yaşayış məntəqələri, mikroayonlar və qəsəbələr eyni layihələr əsasında hazırlanmış, sakinlərə fərdi seçim imkanları təqdim olunmamışdır. Əsas məqsəd insanların mənzil tələbatını təmin etmək, estetika və rahatlığı ön plana çıxarmaq deyildi. Tikilən binaların əksəriyyəti "Leninqrad" və "Kiyev" layihələrinə uyğun olaraq, həm daxili, həm də xarici görünüş baxımından bir-birindən fərqlənmirdi. Eyni tipli layihələr həm yaşayış binalarında, həm məktəb, uşaq bağçası və iaşə obyektlərində tətbiq olunurdu.

O dövrdə yığma dəmir-beton elementlərdən hazırlanan bu binalar insanların mənzil tələbatını qismən ödəsə də bu günün estetik və funksional tələblərinə cavab vermir. Bu binalar həm sakinlərin zövq və istəkləri ilə üst-üstə düşmür, həm də şəhərin memarlıq üslubuna uyğun gəlmir.

Tarixi perspektivdə isə monolit betonun tətbiqi Bakı şəhərində 1927-ci ildən başlamışdır. "Azərnəşr" və "Hökumət evi" kimi binalarda monolit beton elementlər istifadə olunmuşdur. 1940-cı ildə modernləşdirilmiş klassik üslubda inşa edilmiş "U" şəkilli yaşayış binası (fasadı Nizami meydanına baxır) şəhərin görünüşünü zənginləşdirən estetik nümunə olmuşdur.

Müasir dövrdə ölkəmizdə monolit dəmir-beton konstruksiyalar üçün əlverişli iqlim şəraiti mövcuddur və tikinti müddətinin uzanması ilə bağlı çətinliklər artıq ciddi əhəmiyyət daşımır. Son illərdə şəhərlərimizdə, kəndlərimizdə və qəsəbələrimizdə tikilən göz oxşayan, bir-birini təkrarlamayan binalar bu inkişafın əyani göstəricisidir. Zamanla köhnə, eyni tipli binalar öz yerini daha estetik, funksional və müasir tələblərə cavab verən tikililərə verir. Bu prosesdə memarların, mühəndislərin və inşaatçıların üzərinə böyük məsuliyyət düşür, çünki onlar həm insanların yaşayış keyfiyyətini, həm də şəhərin memarlıq simasını müəyyən edirlər.

Beləliklə, monolit dəmir-beton konstruksiyalar yalnız uzunömürlü və dayanıqlı tikinti materialı olmaqla qalmır, həm də şəhərsalmanın və memarlığın müasir tələblərinə cavab verən əsas vasitəyə çevrilmişdir.

## ƏDƏBİYYAT

ACI Committee 318. (2019). *Building code requirements for structural concrete (ACI 318-19) and commentary.* American Concrete Institute.

Hewlett, P. C. (1998). *Lea's chemistry of cement and concrete* (4th ed.). Elsevier.

Lancaster, L. (2005). *Concrete vaulted construction in Imperial Rome: Innovations in context.* Cambridge University Press.

Mamlouk, M. S., & Zaniewski, J. P. (2016). *Materials for civil and construction engineers* (4th ed.). Pearson.

Mindess, S., Young, J. F., & Darwin, D. (2003). *Concrete* (2nd ed.). Prentice Hall.

Neville, A. M. (2011). *Properties of concrete* (5th ed.). Pearson Education Limited.

Visvizi, A., & Lytras, M. D. (2018). It's not a fad: Smart cities and smart villages research in European and global contexts. *Sustainability, 10*(8), 2727. https://doi.org/10.3390/su10082727

**Aygun Amanulla gizi Mansurova**
*Ministry of Science and Education of the Republic of Azerbaijan*
*Construction College under Azerbaijan University*
*of Architecture and Construction, Lecturer*
***E-mail:*** mansurovali2000@gmail.com
*https://orcid.org/0009-0001-3829-3326*

## MONOLITHIC REINFORCED CONCRETE STRUCTURES

***Abstract:*** *The article investigates recent development trends in the construction sector of the Republic of Azerbaijan and the innovative approaches applied in this field. Particular emphasis is placed on restoration and reconstruction projects implemented in the territories liberated from occupation, highlighting the role of modern construction materials, including monolithic reinforced concrete structures, in these processes. The historical stages of development of reinforced concrete structures, their underlying principles of formation, and methodological foundations are comprehensively analyzed, with their potential applications in contemporary construction duly noted.*

*The engineering advantages of monolithic reinforced concrete structures, their durability, and their significance in terms of seismic resistance are substantiated. Furthermore, existing challenges associated with the design and on-site execution of these structures are identified, and targeted recommendations for their resolution are proposed.*

***Keywords:*** *Construction sector, monolithic, reinforced concrete structures, smart village.*

**Айгюн Аманулла кызы Мансурова**
*Министерство науки и образования Азербайджанской Республики*
*Строительный колледж при Азербайджанском университете*
*архитектуры и строительства, преподаватель*
***Электронная почта****:* mansurovali2000@gmail.com
*https://orcid.org/0009-0001-3829-3326*

## МОНОЛИТНЫЕ ЖЕЛЕЗОБЕТОННЫЕ КОНСТРУКЦИИ

***Резюме:*** *В статье исследованы тенденции развития строительной отрасли Азербайджанской Республики в последние*

*годы и новые подходы, применяемые в этой сфере. Особое внимание уделено проектам восстановления и реконструкции, реализуемым на территориях, освобожденных от оккупации, а также разъяснена роль современных строительных материалов, в том числе монолитных железобетонных конструкций, в этих процессах. Исторические этапы развития железобетонных конструкций, принципы их возникновения и методологические основы подвергнуты всестороннему анализу, при этом отмечены возможности их применения в современном строительстве.*

*Обоснованы инженерные преимущества монолитных железобетонных конструкций, их прочность и значимость с точки зрения сейсмостойкости. Кроме того, выявлены существующие проблемы, связанные с проектированием и реализацией на объекте этих конструкций, и предложены рекомендации по их решению.*

***Ключевые слова:*** *Строительная отрасль, монолит, железобетонные конструкции, умная деревня.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 15.01.2025; çapa qəbul edilib – 01.03.2025.



KİTABXANA.AZ, 2025, aprel, №1(42), 61-68

HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
**Ədəbiyyat. Dilçilik**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Literature. Linguistics
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Литература. Лингвистика***

**UOT/UDC/УДК** ***821.112.2(091)***

DOI 10.5281/zenodo.18343277

**Jalə Tofiq qızı Abdullayeva**
*Azərbaycan Dillər Universiteti, müəllim*
***E-mail:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

# ALMAN ƏDƏBİYYATININ AVROPA MƏDƏNİ MƏKANINDA TƏSİR VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Xülasə:*** *Məqalədə Alman ədəbiyyatının Avropa mədəni məkanında təsiri və inkişaf istiqamətləri araşdırılmışdır. Burada Alman yazılı irsinin orta əsrlərdən müasir dövrə qədərki tarixi inkişafı, klassik, romantik və modernist cərəyanlardakı rolu təqdim edilir. Göte, Şiller, Tomas Mann və Franz Kafka kimi Alman müəlliflərinin Avropa ədəbiyyatına verdiyi töhfələr təhlil olunmuşdur. Həmçinin məqalədə müasir dövrdə Alman ədəbiyyatının beynəlxalq festivallarda, tərcümələrdə və mədəni siyasətdəki rolu nəzərdən keçirilmiş və Avropada mədəni inteqrasiyanın gücləndirilməsindəki əhəmiyyəti şərh olunmuşdur. Yekun olaraq müəyyən edilmişdir ki, Alman ədəbiyyatı yalnız milli bir irs deyildir, o, Avropa mədəniyyətinin formalaşmasında və inteqrasiya prosesində aparıcı amildir.*

***Açar sözlər:*** *Alman ədəbiyyatı, Avropa mədəniyyəti, inteqrasiya, klassik ədəbiyyat, romantizm, modernizm.*

## GİRİŞ

Avropa mədəniyyəti tarix boyu müxtəlif xalqların ədəbi, fəlsəfi və bədii ənənələrinin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Bu mədəni mühit yalnız milli və regional xüsusiyyətləri qorumaqla kifayətlənmir, eyni zamanda bir-biri ilə qarşılıqlı təsir və inteqrasiya nəticəsində yeni ədəbi və estetik formalar yaradır. Belə bir kontekstdə, Alman ədəbiyyatı yalnız milli

irsin bir hissəsi deyil, həm də Avropa mədəni məkanının mühüm tərkib hissəsi kimi çıxış edir *(Habermas, 2001)*. Alman yazıçıları və düşünürləri əsrlər boyu Avropanın ideya dünyasına istiqamət verərək mədəni inteqrasiyanın dərinləşməsinə təkan vermişlər. Orta əsrlərdən başlayaraq alman epik poeziyası, dini və fəlsəfi mətnləri Avropada geniş yayılmış, digər xalqların ədəbi və mədəni inkişafına təsir göstərmişdir. Renessans və Maarifçilik dövrlərində Almaniya müəllifləri Avropa intellektual mühitinə aktiv qatılaraq, humanist və klassik dəyərlərin yayılmasına töhfə vermişlər. Göte və Şiller kimi böyük müəlliflər yalnız Almaniyada deyil, bütün Avropada klassik humanizmin və estetik dəyərlərin təcəssümü olmuş, Avropa mədəniyyətinin inteqrasiyasında aparıcı rol oynamışlar *(Beiser, 2011)*.

Alman ədəbiyyatının Avropa kontekstində rolu həm fəlsəfi, həm də bədii aspektləri əhatə edir. Onun əsərləri Avropanın intellektual mühitində fikir və estetik diskussiyaların formalaşmasına, eləcə də xalqlar arasında mədəni dialoqun genişlənməsinə imkan yaratmışdır. Alman müəlliflərinin yaradıcılığı müxtəlif cərəyanlar və dövrlər üzrə Avropada ədəbi və mədəni təsirlərin yaranmasında katalizator rolunu oynamışdır. Bu baxımdan Alman ədəbiyyatı yalnız milli kimliyi ifadə etmir, həm də Avropa mədəni inteqrasiyasının və ortaq humanist dəyərlərin formalaşmasında mühüm amil kimi çıxış edir.

## MÜZAKİRƏ

### *Alman ədəbiyyatının tarixi evolyusiyası və Avropa konteksti*

Alman ədəbiyyatının Avropaya təsiri orta əsrlərdən başlayır və bu dövrün yazılı irsi həm milli, həm də ümumavropa ədəbiyyatı kontekstində mühüm əhəmiyyət kəsb edir. Orta əsrlərdə alman torpaqlarında yaranmış epik poeziya nümunələri, o cümlədən qəhrəmanlıq dastanları və dini mətnlər, həm sosial, həm də dini baxımdan xalqlar arasında ünsiyyət vasitəsi olmuşdur. Məsələn, "Nibelungenlied" kimi epik əsərlər yalnız alman xalqının tarixi və mədəni dəyərlərini deyil, həm də Avropanın digər bölgələri ilə ədəbi dialoqu əks etdirir *(Curtius, 1990)*.

Renessans dövründə Almaniyada humanist ideyaların yayılması ədəbiyyata da təsir etdi. Alman müəllifləri Avropa mədəniyyətinin digər mərkəzləri ilə sıx əlaqədə olmuş, xüsusilə İtaliya və Fransada inkişaf edən humanizm və estetik yenilikləri mənimsəyərək lokal kontekstə uyğunlaşdırmışlar. Bu dövrdə alman ədəbiyyatı həm milli kimliyi qorumağa, həm də Avropa intellektual mühitində iştirak etməyə yönəlmişdi.

XVIII əsrdə klassik dövrün iki böyük siması – Johann Wolfgang von Goethe və Friedrich Schiller Avropa ədəbiyyatının ümumbəşəri dəyərlərini

təcəssüm etdirdilər. Götenin "Faust" əsəri insanın mənəvi axtarışlarını, elmi və fəlsəfi suallarını əks etdirərək Avropa düşüncəsində böyük rezonans yaratdı. Schiller isə estetik və etik idealları birləşdirərək Avropa klassizminin əsas prinsiplərini müəyyənləşdirdi. Onların yaradıcılığı yalnız Almaniyada deyil, Fransada, İngiltərədə və digər Avropa ölkələrində də təsir göstərmiş, Avropa mədəni inteqrasiyasına və bədii dialoqa töhfə vermişdir *(Beiser, 2011).*

Ümumilikdə, Alman ədəbiyyatının bu tarixi mərhələsi onun Avropa ədəbiyyatı ilə qarşılıqlı əlaqələrini və təsir gücünü nümayiş etdirir. Epik və dini mətnlərdən başlayaraq humanizm və klassik dövrə qədərki inkişaf yolu, alman yazıçılarını Avropada inteqrasiya olunmuş mədəniyyətin fəal iştirakçılarına çevirmişdir. Bu dövr həmçinin göstərir ki, Almaniya ədəbiyyatı yalnız milli identikliyi qorumaqla kifayətlənməyib, eyni zamanda Avropa mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

***Ədəbi cərəyanların Avropada yeri***

Alman ədəbiyyatı Avropa ədəbi inkişafında müxtəlif cərəyanlar vasitəsilə mühüm rol oynamışdır. XIX əsrdə yaranan romantizm alman mədəniyyətində milli və şəxsi təcrübələrin ifadəsi ilə yanaşı, Avropada ümumi romantik ideyaların yayılmasına da səbəb olmuşdur. Alman romantikləri – Novalis, Friedrich Schlegel, Achim von Arnim və Clemens Brentano təbiət, hiss və mənəviyyat anlayışlarını ön plana çıxararaq, digər Avropa ölkələrinin romantik müəlliflərinə nümunə olmuşdur. Bu cərəyan xüsusilə İngiltərə, Fransa və İtaliyada romantik ideyaların inkişafında təsirli olmuşdur, həmçinin musiqi və incəsənətdə də əks olunmuşdu *(Safranski, 2014)*.

XX əsrin əvvəllərində Almaniyada ekspressionizm yaranmış, bu cərəyan sənət və ədəbiyyatda subyektiv hisslərin, daxili dünyaların və sosial çatışmaların ifadəsinə yönəlmişdir. Ekspressionist ədəbiyyat Avropanın digər ölkələrində də rezonans doğurmuş, xüsusilə Avstriya və Çexiya ədəbiyyatında yeni estetik istiqamətlərin formalaşmasına təsir göstərmişdir. Bu dövrdə yazarlardan Georg Trakl, Gottfried Benn və Franz Kafka insanın psixoloji və sosial böhranlarını, müharibə və sənaye cəmiyyətinin təsirini dərindən tədqiq etmişlər *(Ziolkowski, 2006).*

Alman ədəbiyyatında modernizm XX əsrin birinci yarısında Avropa ədəbiyyatının qlobal inkişafına inteqrasiya olunmuşdur. Tomas Mann, Hermann Hesse və Robert Musil kimi müəlliflər Avropada intellektual dialoqu gücləndirərək universal insan problemlərini – mənəviyyat, azadlıq, fərdiyyət və kollektiv yaddaşı bədii şəkildə təqdim etmişlər. Modernist cərəyanın alman variantı Avropada estetik, həm də fəlsəfi təsir yaratmış,

digər ölkələrdə yeni yazı üslublarının mənimsənilməsinə təkan vermişdir *(Assmann, 2010).*

İkinci Dünya müharibəsindən sonra isə Alman ədəbiyyatı postmodern və humanist yönümlü mərhələyə keçmişdir. Bu dövrdə yazıçılar, o cümlədən Günter Grass və Heinrich Böll Avropa xalqları arasında qarşılıqlı anlaşmanı gücləndirməyə, tarixi yaddaş və sosial məsuliyyət mövzularını ön plana çıxarmağa çalışmışlar. Alman cərəyanları Avropa ədəbi inteqrasiyasının, eyni zamanda mədəni dialoqun əsas sütunlarından birini təşkil etmişdir *(Habermas, 2001).*

Ümumilikdə, Alman ədəbiyyatının ədəbi cərəyanları – romantizm, ekspressionizm, modernizm və postmodernizm Avropa mədəniyyətinin inkişafında qarşılıqlı təsirin əsas vasitəsi olmuşdur. Bu cərəyanlar vasitəsilə Almaniya yalnız milli ədəbiyyatını deyil, eyni zamanda ümumavropa estetik və etik dəyərləri formalaşdırmışdır.

***Alman müəlliflərinin avropa ədəbiyyatına töhfələri***

Alman müəllifləri Avropa ədəbiyyatının formalaşmasında mühüm rol oynamış, yalnız milli ideyaları deyil, həm də ümumbəşəri dəyərləri və Avropa inteqrasiyasını təcəssüm etdirmişlər.

Johann Wolfgang von Goethe Avropa klassik ədəbiyyatının zirvələrindən biri hesab olunur. Onun "Faust" əsəri yalnız Almaniyada deyil, bütün Avropada böyük əks-səda doğurmuşdur. Bu əsərdə insanın mənəvi və etik axtarışları, bilik və güc arzusu, eləcə də şəxsi azadlıq və məsuliyyət anlayışları universal mövzu kimi təqdim olunur. Götenin bədii dili və fəlsəfi dərinliyi Avropadakı digər müəlliflər üçün nümunə olmuş, xüsusilə Fransada və İngiltərədə klassik estetik düşüncənin inkişafına təsir göstərmişdir *(Boyle, 2000).*

Friedrich Schiller Götenin həmkarı və həmçinin Avropa klassik ədəbiyyatının öncüllərindən biri olaraq, estetik və etik prinsipləri birləşdirən əsərləri ilə Avropanın intelektual mühitində dərin iz buraxmışdır. Onun dram və şeir nümunələri "Wilhelm Tell" və "Ode to Joy" kimi əsərlər yalnız Almaniyada deyil, Avropanın digər ölkələrində də milli azadlıq və humanist ideyaların bədii ifadəsi kimi qəbul edilmişdir *(Beiser, 2011).*

Tomas Mann XX əsrin ən əhəmiyyətli alman yazıçılarından biri olub, Avropa intellektual mühitinin dərin təhlili ilə seçilir. Onun "Sehrli Dağ" və "Buddenbrooks" əsərlərində Avropa burjua cəmiyyətinin mənəvi və sosial problemləri incələnir. Mannın əsərləri Avropada insanın mənəvi böhranını, modern cəmiyyətin dəyərlər sistemini və mədəni dialoqu təsvir edərək Avropa ədəbiyyatının universal aspektlərini nümayiş etdirmişdir *(Kurzke, 1991).*

Franz Kafka isə modern Avropa ədəbiyyatının ən simvolik nümayəndələrindən biri olmuşdur. Onun əsərlərində insanın yadlaşması, varoluş böhranı və bürokratik absurdluq mövzuları Avropada geniş rezonans doğurmuşdur. Kafka Avropa modernizminin mərkəzində dayanaraq, yalnız Alman dili məkanında deyil, beynəlxalq səviyyədə də varoluş və fərdiyyət problemlərinin bədii ifadəsini təmin etmişdir *(Gray, 2005).*

Bundan əlavə, digər alman müəllifləri – Heinrich Heine, Rainer Maria Rilke, Hermann Hesse və Günter Grass  Avropa ədəbiyyatına müxtəlif sahələrdə töhfələr vermişlər. Heine romantizmin poetik ideyalarını Avropaya çatdırmış, Rilke və Hesse isə humanizm və fərdiyyət mövzularını dərin şəkildə işləyərək Avropa ədəbi dialoquna töhfə vermişlər. Günter Grass isə müharibədən sonrakı Avropa ədəbiyyatında sosial və tarixi məsuliyyət mövzularını ön plana çıxarmışdır.

Ümumilikdə, Alman müəllifləri Avropa ədəbiyyatına yalnız milli baxış bucağından deyil, həm də ümumbəşəri, humanist və estetik ideyaların daşıyıcısı kimi təsir göstərmişdir. Onların əsərləri Avropa xalqları arasında mədəni dialoqu və inteqrasiyanı gücləndirmiş, bədii ifadə vasitəsi ilə ümumavropa dəyərlərini formalaşdırmışdır.

***Müasir dövrdə alman ədəbiyyatı***

Müasir dövrdə Alman ədəbiyyatı Avropada və dünyada daha geniş yayılmışdır. Alman yazıçıları beynəlxalq ədəbi festivallarda, mədəni tədbirlərdə və tərcümələr vasitəsilə aktiv şəkildə iştirak edir, Avropa mədəniyyətinin dialoqunda mühüm rol oynayırlar *(Mosse, 1999).* Bu gün Alman ədəbiyyatının diqqət mərkəzində duran mövzular arasında miqrasiya, qloballaşma, identiklik və multikulturalizm yer alır. Alman yazıçılarının bu mövzuları işıqlandırması, Avropa xalqları arasında ortaq problemlərin bədii təsvirini təmin edir və ümumavropa ədəbi dialoqunu gücləndirir *(Habermas, 2001).*

Müasir alman yazıçıları, məsələn, Herta Müller, Daniel Kehlmann, Juli Zeh və Ingo Schulze  müasir Avropanın sosial və mədəni məsələlərini əsərlərində işləyir, fərdiyyət və kollektiv yaddaş mövzularına diqqət çəkirlər. Herta Müllerin yaradıcılığı xüsusilə totalitar rejim və qaçqın təcrübələrini ədəbi şəkildə təqdim etməsi ilə Avropada diqqət çəkmişdir. Daniel Kehlmannın əsərləri isə tarix, fantastika və metaforik bədii üslub vasitəsilə Avropanın tarixi və müasir problemlərini birləşdirir.

Bununla yanaşı, Alman ədəbiyyatı tərcümələr və multikultural layihələr vasitəsilə digər Avropa ölkələrinin oxucularına çatır, beləliklə Avropa mədəni inteqrasiyasının əsas vasitələrindən birinə çevrilir. Müasir alman yazıçıları həmçinin Avropa ədəbiyyatında yeni estetik, fəlsəfi və

sosial mövzuların formalaşmasına təsir göstərir və qlobal ədəbi dialoqa töhfə verirlər.

**NƏTİCƏ**

Alman ədəbiyyatı Avropa mədəniyyətinin tarixi inkişafında və müasir inteqrasiya proseslərində əsas faktorlardan biri olmuşdur. Orta əsrlərdən başlayaraq epik və dini mətnlər, humanizm və klassik dövr, romantizm, ekspressionizm və modernizm mərhələləri boyunca alman yazıçıları Avropa ədəbiyyatına mühüm təsir göstərmişlər. Göte, Schiller, Mann, Kafka və digər alman müəllifləri ümumbəşəri ideyaları ifadə edərək Avropa xalqları arasında mədəni dialoqu və birliyi möhkəmləndirmişlər.

Müasir alman ədəbiyyatı miqrasiya, identiklik, multikulturalizm və qloballaşma kimi sosial və qlobal məsələlərə diqqət yetirərək Avropa ədəbiyyatının estetik və fəlsəfi inkişafına töhfə verir. Ədəbi əsərlər universal dəyərləri çatdırmaqla yanaşı, fərqli xalqlar arasında mədəni anlaşmanı da gücləndirir. Bu baxımdan Alman ədəbiyyatı yalnız milli bir irs deyil, Avropa mədəni inteqrasiyasının aparıcı elementlərindən biri kimi qalır və qlobal mədəni dialoqun formalaşmasında əhəmiyyətli rol oynayır.

## ƏDƏBİYYAT

Assmann, A. (2010). *Cultural Memory and Western Civilization: Functions, Media, Archives*. Cambridge University Press, pp. 12–45, 101–130.

Beiser, F. (2011). *The German Historicist Tradition*. Oxford University Press, pp. 55–80, 200–225.

Boyle, N. (2000). *Goethe: The Poet and the Age*. Oxford: Clarendon Press, pp. 33–78, 145–170.

Curtius, E. R. (1990). *European Literature and the Latin Middle Ages*. Princeton University Press, pp. 67–110.

Gray, R. (2005). *A Franz Kafka Encyclopedia*. Greenwood Press, pp. 50–90, 132–160.

Habermas, J. (2001). *The Postnational Constellation*. MIT Press, pp. 23–60.

Kurzke, H. (1991). *Thomas Mann: Epoche – Werk – Wirkung*. München: C. H. Beck, pp. 15–55, 120–150.

Mosse, G. (1999). *Confronting the Nation: Jewish and Western Nationalism*. University Press of New England, pp. 45–85.

Safranski, R. (2014). *Romantik: Eine deutsche Affäre*. München: Carl Hanser Verlag, pp. 30–70, 100–130.

Ziolkowski, T. (2006). *German Romanticism and Its Institutions*. Princeton University Press, pp.12–50, 110–140.

**Jala Tofig gizi Abdullayeva**
*Azerbaijan University of Languages, lecturer*
***E-mail:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

## THE INFLUENCE AND DEVELOPMENTAL DIRECTIONS OF GERMAN LITERATURE IN THE EUROPEAN CULTURAL SPACE

***Abstract:*** *The article examines the influence and developmental directions of German literature within the European cultural space. It presents the historical evolution of German written heritage from the Middle Ages to the contemporary period, along with its role in classical, romantic, and modernist movements. The contributions of German authors such as Goethe, Schiller, Thomas Mann, and Franz Kafka to European literature are analysed. Furthermore, the article reviews the role of German literature in the modern era within international festivals, translations, and cultural policy, and elucidates its significance in strengthening cultural integration across Europe. In conclusion, it is established that German literature is not merely a national heritage; rather, it serves as a leading factor in the formation of European culture and in the processes of integration.*
***Keywords:*** *German literature, European culture, integration, classical literature, romanticism, modernism.*

**Жаля Тофик кызы Абдуллаева**
*Азербайджанский университет языков, преподаватель*
***Электронная почта:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

## ВЛИЯНИЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ НЕМЕЦКОЙ ЛИТЕРАТУРЫ В ЕВРОПЕЙСКОМ КУЛЬТУРНОМ ПРОСТРАНСТВЕ

***Резюме:*** *В статье исследуется влияние и направления развития немецкой литературы в европейском культурном пространстве. Здесь представлена историческая эволюция немецкого письменного наследия от средних веков до современного периода, а также его роль в классических, романтических и модернистских течениях. Анализируются вклады немецких авторов, таких как Гёте, Шиллер,*

*Томас Манн и Франц Кафка, в европейскую литературу. Кроме того, в статье рассматривается роль немецкой литературы в современную эпоху на международных фестивалях, в переводах и в культурной политике, а также разъясняется её значимость в укреплении культурной интеграции в Европе. В заключение установлено, что немецкая литература не является лишь национальным наследием; она выступает ведущим фактором в формировании европейской культуры и в процессах интеграции.*

***Ключевые слова:*** *Немецкая литература, европейская культура, интеграция, классическая литература, романтизм, модернизм.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 08.02.2025; çapa qəbul edilib – 03.04.2025.



# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

*"Kitabxana.az" jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:*

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı və ORCID (2012-ci ildən bəri beynəlxalq elm aləmində qəbul edilmiş internetdə hərkəsə açıq olan Tədqiqatçı və İştirakçı Eyniləşdiricisi) göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalə 50 sözdən artıq olmayan xülasəyə, 4-dən az olmayan açar sözə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri: yuxarıdan – 2 sm, aşağıdan – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. <u>Əgər mətndaxili sitatlar təkmüəllifli əsərə istinad edirsə:</u> Müəllifin soyadı (insialsız) və nəşr ili kursivlə qeyd olunmalıdır, məsələn, *(Əliyev, 2020)*.
   <u>Mətndaxili sitatlar ikimüəllifli əsərə istinad edirsə:</u> Hər iki müəllifin soyadı və nəşr ili kursivlə yazılmalıdır, məsələn, *(Əliyev & Məmmədov, 2021)*.
   <u>Çoxmüəllifli əsərə istinad olunursa:</u> Əgər əsərin ikidən çox müəllifi varsa, kursivlə birinci müəllifin soyadı, ardınca isə "et al." (lat. və digərləri) qeyd olunmalıdır, məsələn, *(İslamova et al., 2022)*.
6. Ədəbiyyat (istinad) siyahısında son 5-10 il ərzində nəşr olunmuş elmi əsərlərə istinad edilməsi tövsiyə olunur.
   İstinad siyahısı Amerika Psixoloji Assosiasiyasının (APA) üslublu sənəd təsviri qaydalarına uyğun hazırlanmalıdır.
   İstinad siyahısı əlifba sırası və yaxud istifadə olunma ardıcıllığına görə sıralanmalıdır.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvvəllər dərc olunmamalı;
   - heç bir digər jurnala dərc olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin dərc olunmaq üçün qəbul edilib-edilməməsi məsələsi redaksiya heyətinin müzakirəsindən sonra bəlli olur.
9. Əlyazmanın məzmunu və yazılışı üçün yalnız müəlliflər cavabdehlik daşıyırlar.
10. Müəlliflər məqalələri elektron şəkildə <u>shafaq.ace@gmail.com</u> ünvanına göndərə bilərlər.

## ATTENTION TO AUTHORS!

*Scientific articles submitted to the editorial office of the journal "Kitabxana.az" must be compiled taking into account the following rules:*

1. It is necessary to indicate the title of the article, the first and last name of the author, institution, position, academic degree, e-mail address and ORCID.
2. The article is accepted in Azerbaijani, English and Russian.
3. The article should contain an abstract of no more than 50 words and no less than 4 keywords.
4. The article should be written in A4 format, in Microsoft Word (font - Times New Roman - 12; spacing - 1.5; page settings: top - 2 cm, bottom - 2 cm, left - 2.5 cm, right - 2.5 cm).
5. <u>If in-text citations refer to a single author:</u> The author's last name (without initials) and year of publication should be written in italics, e.g., *(Aliyev, 2020)*.
   <u>Two authors:</u> Both authors' last name and year of publication should be written in italics, e.g., *(Aliyev & Mammadov, 2021)*.
   <u>More than two authors:</u> If the reference has more than two authors, the first author should be listed in italics, followed by "et al.", e.g., *(Islamova et al., 2022)*.
6. It is recommended to indicate scientific works published in the last 5-10 years in the list of references.
7. Articles submitted to the journal:
   - earlier should not be published anywhere;
   - should not be submitted for publication in any other journal.
8. The issue of accepting an article for publication becomes clear after discussion by the editorial board.
9. The authors are solely responsible for the content and writing of the manuscript.
10. Authors may submit articles electronically to shafaq.ace@gmail.com.

## ВНИМАНИЕ АВТОРАМ!

*Научные статьи, представляемые в редакцию журнала «Kitabxana.az», должны быть составлены с учетом следующих правил:*

1. Необходимо указать название статьи, имя и фамилию автора, учреждение, должность, ученую степень, адрес электронной почты и ORCID (открытый для всех в интернете Идентификатор Исследователя и Участника, принятый в международном научном мире с 2012 г.).
2. Статья принимается на азербайджанском, английском и русском языках.
3. В статье должно быть резюме не более 50 слов и не менее 4 ключевых слов.
4. Статья должна быть написана в формате A4, в программе Microsoft Word (шрифт - Times New Roman - 12; интервал - 1,5; параметры страницы: сверху - 2 см, снизу - 2 см, слева - 2,5 см, справа - 2,5 см).
5. Если внутритекстовые цитаты относятся к одному автору: Фамилия автора (без инициалов) и год публикации должны быть написаны курсивом, например, *(Алиев, 2020)*.

   Два автора: Фамилия обоих авторов и год публикации должны быть написаны курсивом, например, *(Алиев & Мамедов, 2021)*.

   Более двух авторов: Если в ссылке более двух авторов, курсивом следует указать первого автора, а затем «et al.» (лат. и др.), например, *(Исламова et al., 2022)*.
6. Рекомендуется указывать в списке литературы научные работы, опубликованные за последние 5-10 лет.

   Список литературы должен быть подготовлен в соответствии с правилами описания документов в стиле «APA», разработанными Американской психологической ассоциацией.

   Список литературы должен быть составлен в алфавитном порядке или в порядке использования.
7. Статьи, представленные в журнал:
   - ранее нигде не должны быть опубликованы;
   - не должны быть представлены для публикации в какой-либо другой журнал.
8. Вопрос о принятии статьи к публикации становится ясным после обсуждения на редколлегии.
9. Авторы несут полную ответственность за содержание и написание

рукописи.

10. Авторы могут отправлять статьи в электронном виде по адресу shafaq.ace@gmail.com.

# M Ü N D Ə R İ C A T

===============================================================

### *KİTABXANA İŞİNİN TARİXİ*

**Şəfəq İSLAMOVA**
Yaşıl kitabxanaların tarixi: keçmişdən gələcəyə ekoloji yanaşmalar ...........5

### *HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ*

**Vəfa HƏŞİMOVA, Kənan SÜLEYMANOV**
Azərbaycanda kinematoqrafiya müəssisələrinin iqtisadi vəziyyətinin qiymətləndirilməsi ..........................................................................14

**Gülnarə FƏTƏLİYEVA**
Dünyada və Azərbaycanda 5G mobil texnologiyasının inkişaf meylləri ....25

**Azər ƏLİYEV**
Büdcə daxilolmalarında sair gəlirlərin əhatə dairəsinin genişləndirilməsi yollarının müəyyən olunması ....................................................................35

**Mətanət CƏFƏROVA**
Qiymətli kağızlar bazarının qeyri-neft sektoruna təsiri ...............................45

**Aygün MANSUROVA**
Monolit dəmir-beton konstruksiyalar .........................................................54

**Jalə ABDULLAYEVA**
Alman ədəbiyyatının Avropa mədəni məkanında təsir və inkişaf istiqamətləri ..........................................................................................61

# C O N T E N T S

*HISTORY OF LIBRARIANSHIP*

**Shafag ISLAMOVA**
The history of green libraries: ecological approaches from the past to the future ..........5

*HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES*

**Vafa HASHIMOVA, Kenan SULEYMANOV**
Assessment of the economic situation of cinematographic enterprises in Azerbaijan ..........14

**Gulnara FATALIYEVA**
Development trends of 5G mobile technology in the world and in Azerbaijan ..........25

**Azer ALIYEV**
Identifying of ways for broadening the scope of miscellaneous revenues in budgetary revenues ..........35

**Metanet JAFAROVA**
The impact of the securities market on the non-oil sector ..........45

**Aygun MANSUROVA**
Monolithic reinforced concrete structures ..........54

**Jala ABDULLAYEVA**
The influence and developmental directions of German literature in the European cultural space ..........61

## С О Д Е Р Ж А Н И Е

==================================================

### *ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА*

**Шафаг ИСЛАМОВА**
История зеленых библиотек: экологические подходы от прошлого к будущему ....................................................................................................5

### *ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК*

**Вафа ГАШИМОВА, Кенан СУЛЕЙМАНОВ**
Оценка экономического положения кинематографических предприятий в Азербайджане ...........................................................14

**Гюльнара ФАТАЛИЕВА**
Тенденции развития мобильной технологии 5G в мире и в Азербайджане ........................................................................................25

**Азер АЛИЕВ**
Выявление путей расширения охвата прочих доходов в бюджетных поступлениях ......................................................................................35

**Метанет ДЖАФАРОВА**
Влияние рынка ценных бумаг на ненефтяной сектор ............................45

**Айгюн МАНСУРОВА**
Монолитные железобетонные конструкции ..........................................54

**Жаля АБДУЛЛАЕВА**
Влияние и направления развития немецкой литературы в европейском культурном пространстве .......................................................................61

# KİTABXANA.AZ

elmi-nəzəri və təcrübi jurnal

***2025, Aprel, №1(42)***

* * *

**VÖEN:** 1600740921

**Təsisçi  və baş redaktor:** İslamova Şəfəq İsrafil qızı

**Redaktor:** Məmmədov Eldəniz Elman oğlu

**Redaksiyanın ünvanı:** AZ1096, Bakı ş., K.Balakişiyev küç. 161/15

**Tiraj:** 100 nüsxə

**Qiyməti:** Pulsuz